ISSN: 3104-4670
e-ISSN: 2789-6919

ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnal

Scientific Research

International Scientific Journal

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnal

Cild: 5 Sayı: 7

SCIENTIFIC RESEARCH

International Scientific Journal

Volume: 5 Issue: 7

Bakı – Baku
2025

Beynəlxalq indekslər / International Indices

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.az
© info@aem.az

Təsisçi və baş redaktor

Tədqiqatçı Mübariz HÜSEYİNOV, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

Redaktor

Assoc. Prof. Dr. Sevinc SADIQOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

Redaktor köməkçiləri

PhD Almaz BƏDƏLOVA, Azərbaycan Dillər Universiteti / Azərbaycan
https://orcid.org/0009-0005-0237-8482
doctorant@live.com

PhD Arzu İSGƏNDƏRZADƏ, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
https://orcid.org/0000-0002-2068-736X
arzu.isgandarzada@gmail.com

Doktorant Könül ABDULLAYEVA, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
https://orcid.org/9009-0006-8968-7428
abdullazadehkonul75@gmail.com

Tədqiqatçı Şamxal ŞABİYEV, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
https://orcid.org/0009-0005-6000-7305
shebiyev85@mail.ru

Dillər üzrə redaktorlar

Prof. Dr. Leyla VƏZİROVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Nigar HƏSƏNOVA, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Qəmər ALXANOVA, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
PhD Leyla SƏFƏROVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

Elmi sahələr üzrə redaktorlar

Prof. Dr. Hacı HƏSƏNOV, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
Prof. Dr. Şəhla SƏMƏDOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Yaqut HACIYEVA, Azərbaycan Tibb Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Könül HƏSƏNOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Mahir HACIYEV, ARKTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Səyyarə SADIXOVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Sarvan HÜSEYNOV, Qərbi Kaspi Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Allahverdi ŞƏRİFOV, Azərbaycan Texniki Universiteti / Azərbaycan

REDAKSİYA HEYƏTİ

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

Prof. Dr. Nərgiz AXUNDOVA, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
Prof. Dr. Cavid QASIMOV, Van Yüzüncü İl Universiteti / Türkiyə
Prof. Dr. Yerden KAJIBEK, Qazax dili Akademiyası / Qazaxıstan
Prof. Dr. İrina KREYDİÇ, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna

Prof. Dr. Qəzənfər KAZIMOV, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Prof. Dr. Coanna MARŞALEK-KAVA, Nikolay Kopernik Universiteti / Polşa
Prof. Dr. Natalya MİŞİNA, Odessa Hüquq Akademiyası / Ukrayna
Prof. Dr. Toğrul XƏLİLOV, AMEA Naxçıvan bölməsi / Azərbaycan
Prof. Dr. Yelena ŞİŞKİNA, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
Prof. Dr. Leyla İMAMƏLİYEVA, Bakı Slavyan Universiteti / Azərbaycan
Prof. Dr. Cihan ÖZDEMİR, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
Prof. Dr. Sədaqət HƏSƏNOVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. İya ZUMBULADZE, Kutaisi Dövlət Universiteti / Gürcüstan
Prof. Dr. Kamal CAMALOV, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
Prof. Dr. Təranə HACIYEVA, Bakı Mühəndislik Universiteti / Azərbaycan
Prof. Dr. Elçin İBRAHİMOV, Qarabağ Universiteti / Azərbaycan
Prof. Dr. Cavadxan QASIMOV, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Gulsanam NOROVA, Nəvai Dövlət Pedaqogika İnstitutu / Özbəkistan
Assoc. Prof. Dr. Urfan HƏSƏNOV, Gəncə Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI, ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. İsmayıl MÜRSƏLOV, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. İradə KƏRİMOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Elmar XƏLİLOV, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Səbinə TARVERDİYEVA, Bakı Slavyan Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Kulaş MAMİROVA, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
Assoc. Prof. Dr. Şəkər ORUCOVA, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Həbib MİRZƏYEV, Azərbaycan Texniki Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Andrey RAGULİN, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
Assoc. Prof. Dr. Leyla ƏLİYEVA, Qarabağ Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Yeganə MUSTAFAYEVA, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası / Azərbaycan
Assoc. Prof. Dr. Günay MƏMMƏDOVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Zabitə TEYMURLU, Bakı Mühəndislik Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Gülnoz SATTOROVA, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV, Xəzər Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Aytac ZEYNALOVA, Azərbaycan Dillər Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Qərənfil QULİYEVA, Bakı Dövlət Universiteti / Azərbaycan
PhD İvan PAVLİİ, Dallas Beynəlxalq Universiteti / ABŞ
PhD Günel ƏLİYEVA-MƏMMƏDOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
PhD Tomas SMEDLEY, Cenevrə Kolleci, Pensilvaniya / ABŞ
PhD Qəmər İSAYEVA, Azərbaycan Texniki Universiteti / Azərbaycan
PhD İlahə ŞIXƏLİYEVA, Bakı Dövlət Universiteti / Azərbaycan

TƏBİƏT ELMLƏRİ

Prof. Dr. Rafiq ÇOBANOV, Azərbaycan Tibb Universiteti / Azərbaycan
Prof. Dr. Onur URAL, Selcuk Universiteti / Türkiyə
Prof. Dr. Nikolay BRİKO, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
Prof. Dr. Mehmet ÜNLÜ, Marmara Universiteti / Türkiyə
Prof. Dr. David MENABDE, Kutaisi Dövlət Universiteti / Gürcüstan
Prof. Ali AZQANİ, Tayler Texas Universiteti / ABŞ
Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Arif HÜSEYNOV, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Şəlalə ZEYNALOVA, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Fəxrəddin AĞAYEV, Əkinçilik Elmi Tədqiqat İnstitutu /Azərbaycan
Assoc. Prof. Dr. Sadıq QARAYEV, ARTN Botanika İnstitutu / Azərbaycan
Dr. Asif MANAFOV, ARETN Zoologiya İnstitutu / Azərbaycan
Dr. Xanzoda YULDAŞEVA, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
Dr. Əfruz NƏSİROVA, Odlar Yurdu Universiteti / Azərbaycan
Dr. Svetlana QORNOVSKAYA, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
Dr. Afaq ƏLİYEVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

RİYAZİYYAT VƏ MEXANİKA

Prof. Dr. Eldar VƏLİYEV, Milli Texniki Universitet / Ukrayna
Prof. Dr. Eldar MƏSİMOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Maarif CƏFƏROV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Allahverdi CƏFƏROV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Rövşən HÜMBƏTƏLİYEV, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
Assoc. Prof. Dr. Aygün SULTANOVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Ramazan EYYUBOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Lalə QOCAYEVA, Gəncə Dövlət Universiteti / Azərbaycan

TEXNİKA ELMLƏRİ

Prof. Dr. Fəxrəddin YUSUBOV, Azərbaycan Texniki Universiteti / Azərbaycan
Prof. Dr. Valeriy LİSENKO, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
Assoc. Prof. Dr. Rafiq İBRAHİMOV, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Elov BOTİR, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
PhD Rafiq AĞAMALIYEV, Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu / Azərbaycan

Founder and Editor-in-Chief

Researcher Mubariz HUSEYINOV, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

Editor

Assoc. Prof. Dr. Sevinj SADIGOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

Assistant editors

PhD Almaz BADALOVA, Azerbaijan University of Languages / Azerbaijan
https://orcid.org/0009-0005-0237-8482
doctoral@live.com

PhD Arzu ISGANDARZADEH, Institute of Linguistics named after Nasimi of ANAS / Azerbaijan
https://orcid.org/0000-0002-2068-736X
arzu.isgandarzada@gmail.com

PhD student Konul ABDULLAYEVA, Azerbaijan State Oil and Industry University / Azerbaijan
https://orcid.org/9009-0006-8968-7428
abdullazadehkonul75@gmail.com

Researcher Shamkhal SHABIYEV, Azerbaijan Science Center / Azerbaijan
https://orcid.org/0009-0005-6000-7305
shebiyev85@mail.ru

Language editors

Prof. Dr. Leyla VAZIROVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Nigar HASANOVA, Institute of Linguistics named after Nasimi of ANAS / Azerbaijan
Assoc. Prof. Dr. Gamar ALKHANOVA, Azerbaijan Science Center / Azerbaijan
PhD Leyla SAFAROVA , Azerbaijan State Pedagogical University / Azerbaijan

Editors in scientific fields

Prof. Dr. Haji HASANOV, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
Prof. Dr. Shahla SAMADOVA, Baku State University / Azerbaijan
Prof. Dr. Yaqut HAJIYEVA, Azerbaijan Medical University / Azerbaijan
Assoc. Prof. Dr. Ilkin ALIMURADOV, Azerbaijan Institute of Theology / Azerbaijan
Assoc. Prof. Dr. Konul HASANOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Mahir HAJIYEV, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
Assoc. Prof. Dr. Sayyara SADIKHOVA, Nakhchivan State University / Azerbaijan
Assoc. Prof. Dr. Sarvan HUSEYNOV, West Caspian University / Azerbaijan
Assoc. Prof. Dr. Khalida HASANOVA, Sumgait State University / Azerbaijan
Assoc. Prof. Dr. Allahverdi SHARIFOV, Azerbaijan Technical University / Azerbaijan

EDITORIAL BOARD

HUMANITIES AND SOCIAL SCIENCES

Prof. Dr. Nargiz AKHUNDOVA, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
Prof. Dr. Javid GASIMOV, Van Yuzuncu Yil University / Turkey
Prof. Dr. Erden KAJIBEK, Kazakh Language Academy / Kazakhstan

Prof. Dr. Irina KREYDICH, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
Prof. Dr. Gazanfar KAZIMOV, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
Prof. Dr. Joanna MARSZALEK-KAWA, Nicolaus Copernicus University / Poland
Prof. Dr. Natalya MISHINA, Odessa Law Academy / Ukraine
Prof. Dr. Toghrul KHALILOV, Nakhchivan branch of ANAS / Azerbaijan
Prof. Dr. Yelena SHISHKINA, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
Prof. Dr. Leyla IMAMALIYEVA, Baku Slavic University / Azerbaijan
Prof. Dr. Jihan OZDEMIR, Bilecik Şeykh Edebali University / Turkey
Prof. Dr. Sadagat HASANOVA, Nakhchivan State University / Azerbaijan
Prof. Dr. Iya ZUMBULADZE, Kutaisi State University / Georgia
Prof. Dr. Kamal JAMALOV, Nakhchivan Institute of Teachers / Azerbaijan
Prof. Dr. Tarana HAJIYEVA, Baku Engineering University / Azerbaijan
Prof. Dr. Elchin IBRAHIMOV, Karabakh University / Azerbaijan
Prof. Dr. Javadkhan GASIMOV, Nakhchivan State University / Azerbaijan
Assoc. Prof. Dr. Gulsanam NOROVA, Navai State Pedagogical Institute / Uzbekistan
Assoc. Prof. Dr. Urfan HASANOV, Ganja State University / Azerbaijan
Assoc. Prof. Dr. Faig SHAHBAZLI, Industrial and Technological college under ASOIU / Azerbaijan
Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Elnura AZIZOVA, Azerbaijan Institute of Theology / Azerbaijan
Assoc. Prof. Dr. Ismayil MURSALOV, Nakhchivan Institute of Teachers / Azerbaijan
Assoc. Prof. Dr. Irada KARIMOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Elmar KHALILOV, Sumgait State University / Azerbaijan
Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA, Baku Slavic University / Azerbaijan
Assoc. Prof. Dr. Kulash MAMIROVA, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
Assoc. Prof. Dr. Shakar ORUJOVA, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
Assoc. Prof. Dr. Habib MIRZAYEV, Azerbaijan Technical University / Azerbaijan
Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA, Sumgait State University / Azerbaijan
Assoc. Prof. Dr. Andrey RAGULIN, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
Assoc. Prof. Dr. Leyla ALIYEVA, Karabakh University / Azerbaijan
Assoc. Prof. Dr. Yegana MUSTAFAYEVA, Uzeyir Hajibeyli named of Baku Academy of Music / Azerbaijan
Assoc. Prof. Dr. Gunay MAMMADOVA, Nakhchivan State University / Azerbaijan
Assoc. Prof. Dr. Zabita TEYMURLU, Baku Engineering University / Azerbaijan
Assoc. Prof. Dr. Gulnoz SATTOROVA, Institute of Uzbek Language, Literature and Folklore of the UAS / Uzbekistan
Assoc. Prof. Dr. Rashad HUSEYNOV, Khazar University / Azerbaijan
Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA, Azerbaijan University of Languages / Azerbaijan
Assoc. Prof. Dr. Garanfil GULIYEVA, Baku State University / Azerbaijan
PhD Ivan PAVLII, Dallas International University / USA
PhD Gunel ALIYEVA-MAMMADOVA, Baku State University / Azerbaijan
PhD Thomas SMEDLEY, Geneva College in Beaver Falls, Pennsylvania / USA
PhD Gamar ISAYEVA, Azerbaijan Technical University / Azerbaijan
PhD Ilaha SHIKHALIYEVA, Baku State University / Azerbaijan

NATURAL SCIENCES

Prof. Dr. Rafig CHOBANOV, Azerbaijan Medical University / Azerbaijan
Prof. Dr. Onur URAL, Seljuk University / Turkey
Prof. Dr. Akbar AGHAYEV, Sumgait State University / Azerbaijan
Prof. Dr. Nikolay BRICO, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
Prof. Dr. Ilham SHAHMURADOV, Institute of Botany of ANAS / Azerbaijan
Prof. Dr. Mehmet UNLU, Marmara University / Turkey
Prof. Dr. David MENABDE, Kutaisi State University / Georgia
Prof. Ali AZGANY, University of Texas at Tyler / USA
Assoc. Prof. Dr. Shikar AHMADOV, Agricultural Scientific Research Institute / Azerbaijan
Assoc. Prof. Dr. Arif HUSEYNOV, Azerbaijan State Agrarian University / Azerbaijan
Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Shalala ZEYNALOVA, Azerbaijan State Agrarian University / Azerbaijan
Assoc. Prof. Dr. Fakhraddin AGHAYEV, Scientific Research Institute of Agriculture / Azerbaijan

Assoc. Prof. Dr. Sadig GARAYEV, ARETN Institute of Botany / Azerbaijan
Assoc. Prof. Dr. Aliya RZAYEVA, Institute of Natural Resources of MSERA / Azerbaijan
Dr. Asif MANAFOV, Institute of Zoology of MSERA / Azerbaijan
Dr. Khanzoda YULDASHEVA, Center for Professional Development of Medical Workers / Uzbekistan
Dr. Afruz NASIROVA, Odlar Yurdu University / Azerbaijan
Dr. Svetlana GORNOVSKAYA, Beloserkovsk National Agrarian University / Ukraine
Dr. Afag ALIYEVA, Nakhchivan State University / Azerbaijan

MATHEMATICS AND MECHANICS

Prof. Dr. Eldar VALIYEV, National Technical University / Ukraine
Prof. Dr. Eldar MASIMOV, Baku State University / Azerbaijan
Prof. Dr. Maarif JAFAROV, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Allahverdi JAFAROV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Rovshan HUMBATALIYEV, Azerbaijan State Maritime Academy / Azerbaijan
Assoc. Prof. Dr. Aygun SULTANOVA, Nakhchivan State University / Azerbaijan
Assoc. Prof. Dr. Ramazan EYYUBOV, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Lala GOJAYEVA, Ganja State University / Azerbaijan

TECHNICAL SCIENCES

Prof. Dr. Faxraddin YUSUBOV, Azerbaijan Technical University / Azerbaijan
Prof. Dr. Valery LISENKO, All-Russian Metrological Service Research Institute / Russia
Assoc. Prof. Dr. Rafig IBRAHIMOV, Azerbaijan State Oil and Industry University / Azerbaijan
Assoc. Prof. Dr. Elov BOTIR, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
PhD Rafig AGHAMALIYEV, National Aerospace Agency, Natural Resources Space Research Institute / Azerbaijan

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/47/9-14

Aidə Bağırova
Bakı Dövlət Universiteti
tarix elmləri doktoru
https://orcid.org/0000-0003-4458-6970
aida_bagirova@yahoo.com

2003-cü il İraq müharibəsi ərəfəsində aparıcı dövlətlərin diplomatik mübarizəsi

Xülasə

Məqalədə 2003-cü ilin martında ABŞ-nin başçılığı altında beynəlxalq koalisiya qüvvələrinin İraqa qarşı müharibəsi ərəfəsində böyük dövlətlərin diplomatik mübarizəsi araşdırılır. Məqalədə qeyd olunur ki, 2001-ci il 11 sentyabr terror hadisəsi təkcə ABŞ-nin təhlükəsizliyinə deyil, bütövlükdə mövcud dünya düzəninə keyfiyyətcə yeni çağırışlar yaratdı və terrorla mübarizə aparıcı dünya dövlətləri üçün prioritet məsələyə çevrildi. Antiterror əməliyyatı nəticəsində Əfqanıstanda Talibanın süqutundan sonra (oktyabr 2001) İraq rejimi kütləvi qırğın silahlarını istehsal etməkdə və beynəlxalq terrorizmi dəstəkləməkdə ittiham edilərək qlobal terror təhlükəsinin mənbəyi elan edildi. Artıq 2001-ci ilin ikinci yarısından etibarən ABŞ-nin apardığı antiterror kampaniyası çərçivəsində İraq probleminin güc müstəvisində həlli hədəfə çevrilmişdi. Bu dövrdə aparıcı dövlətlərin diplomatik mübarizəsi, əsasən, BMT TŞ-nın daimi üzvləri və Aİ-nin önəmli dövlətləri arasında aparılırdı.

Məqalədə göstərilir ki, İraq probleminin tənzimlənməsində iki bir-birinə zidd mövqe, yanaşma mövcud idi. ABŞ və onun əsas müttəfiqi olan Böyük Britaniya problemin güc müstəvisində həlli tərəfdarı kimi çıxış edirdilər, BMT TŞ-nın digər üzvləri – Fransa, Rusiya və Çin, həmçinin Aİ-nin aparıcı dövləti olan Almaniya problemin dinc yolla həllinə çalışırdılar.

Açar sözlər: *2001-ci il 11 sentyabr terroru, antiterror əməliyyatı, ABŞ, BMT TŞ, İraq, 2003-cü il müharibəsi*

Aida Baghirova
Baku State University
Doctor of History
https://orcid.org/0000-0003-4458-6970
aida_bagirova@yahoo.com

The Diplomatic Struggle of the Leading States on the Eve of the 2003 Iraq War

Abstract

The article examines the diplomatic struggle of the major powers on the eve of the war against Iraq by the international coalition forces led by the United States in March 2003. The article notes that the September 11, 2001 terrorist attack created qualitatively new challenges not only to the security of the United States, but also to the existing world order as a whole and the fight against terrorism became a priority issue for the leading world powers. After the fall of the Taliban in Afghanistan as a result of the anti-terrorist operation (October 2001), the Iraqi regime was accused of producing weapons of mass destruction and supporting international terrorism and was declared the source of the global terrorist threat. Already from the second half of 2001, the resolution of the

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Iraqi problem by force became a goal within the framework of the anti-terrorist campaign conducted by the United States. During this period, the diplomatic struggle of the leading states was mainly conducted between the permanent members of the UN Security Council and the leading states of the EU.

The article shows that there were two contradictory positions and approaches to the settlement of the Iraq problem. The USA and its main ally, Great Britain, advocated a solution to the problem by force, while other members of the UN Security Council – France, Russia and China, as well as Germany, the leading state of the EU, sought a peaceful resolution of the problem.

Keywords: *September 11 2001 terror, anti-terrorist operation, USA, UN Security Council, Iraq 2003 War*

Giriş

2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqtonda törədilən terror aktları təkcə ABŞ-yə deyil, bütövlükdə mövcud dünya düzəninə keyfiyyətcə yeni çağırışlar yaratdı.

Tədqiqat

2002-ci il yanvarın 29-da Konqresə "Ölkədə vəziyyət haqqında" illik müraciətində ABŞ-nin 43-cü prezidenti oğul Corc Buş 11 sentyabr terror aktlarını "XXI əsrin ilk müharibəsi" adlandırdı və terrorizmə və onu dəstəkləyən qüvvələrə və dövlətlərə qarşı qlobal mübarizəyə başlamağın zəruriliyini bəyan etdi (*Vneshnepoliticheskaya strategiya respublikanskoi administratsii SSHA*, 2002, s. 3). O, ilk dəfə İran, İraq və Şimali Koreya kimi ölkələrə münasibətdə "şər oxu" ifadəsini işlətdi və bu dövlətlərin beynəlxalq terrorizmə himayədarlıq etdiyini və ona hərtərəfli yardım göstərdiyini, bununla da dünyanı ciddi təhlükə qarşısında qoyduğunu bildirdi (Sinovets, Grebtsov, 2004, s. 115-124). 2001-ci ilin oktyabrında ABŞ-Britaniya koalisiyasının "Sarsılmaz azadlıq" hərbi əməliyyatı nəticəsində Əfqanıstanda Talibanın süqutundan sonra İraq rejimi kütləvi qırğın silahlarını (KQS) istehsal etməkdə və beynəlxalq terrorizmə, o cümlədən "əl-Qaidə"yə dəstək verməkdə ittiham edilərək qlobal terror təhlükəsinin mənbəyi elan edildi (*О положении в стране*, 2002, s. 5). Bu bəyanat, eləcə də Vaşinqton administrasiyasının digər üzvlərinin çıxışları İraq probleminin güc müstəvisində həlli üçün ölkədə və onun hüdudlarından kənarda ictimai rəyin formalaşması məqsədilə ideoloji hazırlığın başlanmasından xəbər verirdi (Kuznetsov, 2010, s. 107).

İraqın ABŞ-nin milli təhlükəsizliyinə təhdid yaratdığı əsas götürülərək Vaşinqton aktiv fəaliyyətə keçdi və onun İraqla bağlı siyasəti sərt xarakter almağa başladı. Məlumdur ki, hələ 2001-ci ildə ABŞ "ağıllı sanksiyalar" vasitəsilə İraq rejimini "sıxmağa" çalışmışdı. Bu siyasətin mahiyyəti ondan ibarət idi ki, tətbiq olunan sanksiyalar məqsədyönlü xarakter alırdı, İraqa ikili təyinatlı malların və texnologiyaların tədarükünə nəzarət gücləndirilir, İraq rəhbərlərinə xarici ölkələrə giriş vizası verilmir, onların xarici hesabları nəzarətə götürülür, lazım gələrsə, həbs edilirdi, eyni zamanda iqtisadi sanksiyaların yumşalması nəzərdə tutulurdu (Keegan, 2004, s. 96).

Vaşinqtonun ciddi təzyiqi nəticəsində, Rusiya istisna olmaqla, BMT TŞ-nın digər üzvləri "ağıllı sanksiyaları" dəstəkləməyə razılaşdı. Rusiyanın bu layihəyə "veto" qoymaq hədəsi sənədin geri çağırılması ilə nəticələndi. Beləliklə, məlum oldu ki, Vaşinqtonun BMT TŞ çərçivəsində İraq istiqamətində fəaliyyət göstərmək cəhdləri nəinki gözlənilən nəticəni vermədi, əksinə, bu qurumun daimi üzvləri arasında müşahidə olunan ciddi fikir ayrılıqları və maraqların toqquşması ABŞ-yə qarşı işləməyə başladı. Bu xətt BMT TŞ-nın 29 noyabr 2001-ci il tarixli 1382 saylı və 2002-ci il 14 may tarixli 1402 saylı qətnamələrinin müzakirəsi və qəbulu zamanı, Rusiya və Fransa nümayəndələrinin pərdəarxası oyunları nəticəsində ABŞ-nin artıq təsdiqlənmiş qətnamə layihəsi ciddi korrektəyə məruz qaldı, bir çox tələbləri yumşaldıldı, bəziləri isə tamamilə çıxarıldı (Lopez, Cortright, 2004, s. 35).

Bu səbəbdən Vaşinqton iki istiqamətdə fəaliyyət göstərirdi: BMT TŞ çərçivəsində aktiv siyasi-diplomatik addımlarla yanaşı İraq probleminin böhranlı həlli üçün hazırlıqlara başladı. Məqsədlərinə haqq qazandırmaq üçün Vaşinqton çoxşaxəli ideoloji və siyasi tədbirlər həyata keçirirdi və məsələni elə təqdim etməyə çalışırdı ki, İraq böhranının həlli prosesini dalandan çıxarmaq üçün siyasi və diplomatik səylər səmərəsizdir və İraq rejimi ilə konstruktiv dialoq mümkün deyildir.

Qeyd edək ki, həmin dövrdə rəsmi Bağdadın siyasi davranışı və hərəkətləri də gərginliyin səviyyəsinin azalmasına kömək etmirdi – o, beynəlxalq ekspertlərin ölkəyə buraxılması və KQS-nın və onların çatdırılma vasitələrinin müəyyən edilməsi məqsədilə hərbi sənayenin monitorinqinə icazə verilməsi çağırışlarına məhəl qoymurdu. ABŞ isə İraq sərhədləri yaxınlığındakı bazalarına iri hərbi kontingentlərin intensiv şəkildə yerləşdirilməsinə davam edirdi – artıq 2003-cü ilin əvvəlində onun sayı 150 min nəfərdən çox idi (Sharipov, 2010, s. 217). Bağdad siyasi-diplomatik manevrlərini davam etdirərək, dünyanın aparıcı dövlətləri arasında kəskin fikir ayrılığının, qlobal və regional səviyyədə maraqlarının toqquşması probleminin dalandan çıxması ümidi ilə vaxt udmağa çalışırdı. Eyni zamanda, aparıcı dövlətlərin, o cümlədən İraqı dəstəkləyən dövlətlərin böyük əksəriyyətinin, beynəlxalq ekspertlərin problemin tezliklə həlli məsələsində vahid mövqedən çıxış etmələri faktını nəzərdən qaçırmaq mümkün deyildi. Bu xətt BMT TŞ-nın Nyu-Yorkda keçirilən qeyri-rəsmi toplantısında təsdiqləndi və burada İraqla bağlı daha "sərt" qətnamənin qəbul edilməsi ehtimalı müzakirə edildi. Beynəlxalq birliklə növbəti qarşıdurmanın artıq əbəs və mənasız olduğunu başa düşən İraq lideri S.Hüseyn 2002-ci ilin fevralında ekspertlərin ölkədə fəaliyyətinin bərpası ilə bağlı danışıqlara başlamasına razılıq verdi. Həmin ilin martında BMT-nin Baş katibi K.Annanın İraqın xarici işlər naziri N.Sabri ilə görüşündə birmənalı şəkildə bildirilmişdi ki, İraq BMT TŞ-nın bütün müvafiq qətnamələrini yerinə yetirməlidir və "bu istiqamətdə ilk addım qeyd-şərtsiz beynəlxalq ekspertlərlə əməkdaşlığın bərpası olmalıdır" (Secretary of State Addresses the U.N. Security Council, 2003).

2002-ci il oktyabrın 7-də C.Buş Amerika xalqına müraciətində Bağdad rejiminin nüvə proqramını həyata keçirmək ərəfəsində olduğunu bəyan etdi və aşağıdakı şərtləri yerinə yetirməsi ultimatumunu verdi: İraq KQS-na malik olduğunu etiraf etməli və arsenallarını ləğv etməlidir; beynəlxalq terrorizmə dəstək siyasətinə son qoymalı; ölkədə dinc əhaliyə qarşı repressiya təqiblərinə son qoymalı; BMT sanksiyalarını pozan qeyri-qanuni neft satışını dayandırmalı; İraq həbsxanalarında saxlanılan bütün hərbi əsirlər, o cümlədən amerikalı pilotlar haqqında hərtərəfli məlumat verməli və s. O bildirib ki, İraq bu tələbləri yerinə yetirməkdən imtina edərsə, "BMT münaqişəyə müdaxilə etməlidir", amma "o, İraqı tərksilah edə bilmirsə, ABŞ bu missiyanı öz üzərinə götürməlidir" (Pis'mo ministra inostrannykh del Iraka Nadzhi Sabri na imya General'nogo sekretarya OON, 2002). 2002-ci ilin oktyabrında ABŞ-Britaniya alyansı BMT TŞ-na İraqla bağlı "sərt" qətnamə layihəsi təqdim etdi ki, bu da beynəlxalq ekspertlərin ölkəyə dərhal girişini, onun ərazisində monitorinq obyektlərinin sayının artırılmasını və səkkiz prezident sarayının bu siyahıya daxil edilməsini nəzərdə tuturdu. BMT TŞ qətnamənin qəbul edildiyi andan İraqa BMT Baş katibinə bütün tələblərlə bağlı razılığını bildirmək üçün yeddi gün, KQS üzrə hərbi proqramları ilə bağlı bütün obyektlərin siyahısını BMT-yə təqdim etmək üçün 30 gün vaxt verilirdi. Bu tələblərdən birinin belə yerinə yetirilməməsi, BMT üzvü olan dövlətə onun həyata keçirilməsi üçün bütün vasitələrdən istifadə etmək hüququnu verirdi (Bağırova, 2010, s. 96).

Bu layihə BMT TŞ-da qızğın müzakirələrə səbəb oldu – Rusiya, Fransa və Çinin buna qarşı kəskin çıxışı növbəti böhran yaratdı. Müzakirələr zamanı fəallıq göstərən Fransa iki mərhələli nizamlanma modelini təklif etdi. Rusiya və Çin tərəfindən dəstəklənən Fransa planı ilkin olaraq beynəlxalq ekspertlərin İraqdakı missiyasının bərpasını nəzərdə tuturdu. İraq tərəfindən onların fəaliyyətinə maneələr yaranarsa, ekspertlər bütün pozuntular barədə dərhal BMT TŞ-na məlumat verməli idilər. Bu mərhələdə güc tətbiqi tamamilə istisna edilirdi. İkinci mərhələdə vəziyyətin müzakirəsi üçün BMT TŞ-nın fövqəladə iclasının çağırılması nəzərdə tutulurdu ki, bu iclasda onun 15 üzvündən 9-nun, o cümlədən bütün 5 daimi üzvün təsdiqindən sonra İraqa qarşı güc tətbiq edilməsinə dair qətnamə qəbul edilə bilərdi (*Kaninskaya*, 2003, s. 96).

Fransanın təklif etdiyi plan ABŞ-Britaniya alyansının maraqlarına cavab verməsə də, BMT TŞ-da yeni qarşıdurma yaratmamaq üçün ABŞ birgə qətnamə layihəsini geri götürdü. 2002-ci il oktyabrın 22-də ABŞ BMT TŞ-na İraqla bağlı Fransanın təkliflərini qismən nəzərə alan yeni qətnamə layihəsi təqdim etdi. Layihənin yeni variantının özəlliyi ondan ibarət idi ki, orada İraqa qarşı birtərəfli güc tətbiqi nəzərdə tutulmurdu. Uzun sürən diplomatik manevrlər nəticəsində 2002-ci il noyabrın 8-də BMT TŞ Rusiya, Fransa və Çinin, habelə qeyri-daimi üzv Suriyanın səsləri də daxil olmaqla, yekdilliklə 1441 saylı qətnamə qəbul etdi. Bu qətnamə İraqda beynəlxalq monitorin-

qin bərpasına və sanksiyaların ləğvinə yol açırdı. Sənəd tərəflərin öhdəliklərini müəyyən edirdi: noyabrın 15-dək İraq onun şərtlərini qəbul etdiyini bəyan etməli; noyabrın 18-də MAQATE-nin Baş direktoru M.əl-Baradeyi və beynəlxalq ekspertlər qrupunun rəhbəri H.Bliks, noyabrın 25-də isə bütün ekspertlər Bağdada qayıtmalı idilər. İraq dekabrın 8-dək onlara KQS proqramları ilə bağlı bütün sənədləri təqdim etməli idi.

Dekabrın 23-də ekspertlər qrupu İraq ərazisindəki istənilən obyektə, o cümlədən prezident iqamətgahlarına məhdudiyyətsiz giriş edə bilərdilər. Fevralın 21-dən gec olmayaraq ekspertlər İraqdakı fəaliyyətlərini başa çatdırmalı və BMT TŞ-na müvafiq Hesabat təqdim etməli idilər. Yalnız bunun əsasında beynəlxalq birlik vahid fəaliyyət planı və problemin həlli üçün addımlarını müəyyən edə bilərdi.

2003-cü ilin yanvarından etibarən Vaşinqton BMT ilə yanaşı Aİ səviyyəsində də bəzi təbliğat xarakterli tədbirləri həyata keçirdi, çünki Aİ-nin İraq problemi ilə bağlı ABŞ-nin bəyanatlarına və hərəkətlərinə qarşı mövqeyi birmənalı deyildi. Aİ üzvləri ABŞ-yə müttəfiq və rəqib dövlətlərə parçalandı və bu xətt getdikcə daha də dərinləşirdi. Vaşinqtonun müttəfiqləri arasında Böyük Britaniya, Portuqaliya, Danimarka, Niderland, İtaliya, İspaniya, həmçinin o dövrdə Aİ üzvlüyünə namizəd olan bir sıra Mərkəzi və Şərqi Avropa ölkələri var idi (Troitskii, 2004, s. 93). 2003-cü il yanvarın 30-da Aİ-nin beş üzvü və üç namizəd ölkənin başçıları ABŞ-nin İraqı tərksilah etmək üçün hərbi əməliyyatlar da daxil olmaqla istənilən addımına dəstək ifadə edən "səkkizlərin məktubu" adlanan sənəd imzaladı. Fransa və Almaniyanın başçılıq etdiyi Aİ-nin digər üzvləri İraq probleminin hərbi yolla həllinə qarşı çıxırdılar. Bu qrupa həmçinin ənənəvi olaraq neytral və ya bloklara qoşulmayan, müharibədən və güc tətbiqinə icazə verən qətnamənin olmamasından narahatlığını ifadə edən Avropa ölkələri də daxil idi.

2003-cü il fevralın 5-də ABŞ-nin təşəbbüsü ilə Nyu-Yorkda BMT TŞ-nın iclası çağırıldı. ABŞ Dövlət katibi K.Pauell öz çıxışında İraq nümayəndələrinin telefon danışıqlarını, bir sıra obyektlərin, o cümlədən kimyəvi zavodun və KQS-nın istehsalı üçün mobil laboratoriyaların fotoşəkillərini təqdim edərək, TŞ-nın üzvlərini İraqın 1441 saylı qətnaməni pozduğuna inandırmağa çalışdı və İraq rejimini "əl-Qaidə" ilə əlaqədə birbaşa ittiham etdi. K.Pauell İraqın hərəkətlərini "beynəlxalq təhlükəsizliyə təhdid" kimi qiymətləndirərək BMT TŞ-nı "təcili və sərt qərarlar" qəbul etməyə çağırdı (Secretary of State Addresses the U.N. Security Council, 2003). Lakin onun İraqın beynəlxalq terrorizmlə əlaqəsi olduğunu sübut etmək cəhdi ölkədə beynəlxalq ekspertlərin işinin davam etməsinin tərəfdarı olan Rusiya, Fransa və Çinin etirazına səbəb oldu. K.Pauellin məruzəsindən sonra BMT TŞ-da pat vəziyyəti yarandı – daimi üzvlər İraq probleminin tənzimlənməsi ilə bağlı əks mövqedə olduqlarından iki müxtəlif sənəd müzakirəyə təqdim edildi. Bunlardan biri ABŞ, Böyük Britaniya və İspaniyanın İraqa qarşı "adekvat tədbirlər"dən istifadə edilməsi ilə bağlı hazırladığı və müharibəyə yol açan qətnamə layihəsi idi. Digəri, problemin sülh yolu ilə həllinə yönəlmiş, Fransa, Almaniya və Rusiya tərəfindən hazırlanmış Memorandum idi. Bu sənəddə qeyd olunurdu ki, BMT TŞ-nın qətnamələrinə uyğun olaraq beynəlxalq ekspertlərə əlavə vaxt və resurslar ayrılmalıdır. Hərbi yolla problemin həlli son çarə olaraq qalmalıdır. 2003-cü il fevralın 14-də Nyu-Yorkda BMT TŞ-nın açıq iclası başladı. Bu toplantıda beş daimi üzvün xarici işlər nazirlərinin iştirakı ilə beynəlxalq ekspert qrupunun rəhbəri H.Blixin İraqda aparılan monitorinqin gedişi ilə bağlı aralıq hesabatı dinlənildi. Onun sözlərinə görə, 11 həftəlik monitorinq ərzində Bağdadın ekspertlərə texniki yardım göstərilməsi sahəsində vəziyyət yaxşılaşıb və yoxlamalar yolu ilə İraqın tərksilah edilməsi mümkündür (Blix, 2004, s. 109). 2003-cü il fevralın əvvəlində ABŞ-nin İraqla bağlı qətnamə layihəsi müzakirə üçün BMT TŞ-na təqdim edildi. ABŞ-nin daimi nümayəndəsi C.Neqropontenin toplantıdakı çıxışı ultimatum xarakteri daşıyırdı – o, "beş daimi üzvdən hər hansı birinin veto hüququndan istifadə etməsi avtomatik olaraq İraq rejiminə qarşı birtərəfli güc tətbiqi deməkdir" dedi. Böyük Britaniyanın BMT-dəki daimi nümayəndəsi C.Qrinstok altı tələbdən ibarət rəsmi sənəd yaydı: S.Hüseyn 30 alim və onların ailə üzvlərinə ölkəni tərk etməyə icazə verməlidir; İraq sahib olduğu bütün pilotsuz uçuş aparatlarını təqdim etməli, həmçinin kimyəvi və bakterioloji silahları yaymaq qabiliyyətinə malik bu vasitələr üçün xüsusi qurğular üzərində apardığı sınaqların bütün təfərrüatlarını, bioloji və kimyəvi silahların istehsalı üçün bütün mobil imkanlarını ekspertlərə təqdim etməlidir.

2003-cü il martın 15-də Fransa Xarici İşlər Nazirliyi İraq ətrafındakı vəziyyəti müzakirə etmək üçün BMT TŞ-nın xarici işlər nazirləri səviyyəsində təcili iclasını keçirməsini təklif etdi. BMT TŞ-da ciddi müqavimətlə üzləşən ABŞ-Britaniya alyansı daha çevik hərəkət etmək qərarına gəldi – martın 16-da Azor adalarında "üçlüyün" sammitində (ABŞ prezidenti C.Buş, Böyük Britaniyanın Baş naziri T.Bleyr və İspaniyanın Baş naziri H.M.Aznar) bəyan edildi ki, BMT TŞ-na yeni qətnamə qəbul olunması üçün 24 saat verilir, əks halda onlar "birtərəfli və müstəqil addımlar atmaq üçün öhdəlik götürürlər", bu da mahiyyətcə ultimatum demək idi. Odur ki, martın 17-də BMT TŞ-da İraqla bağlı qapalı dinləmələrdə yalnız Fransa-Rusiya-Almaniya tərəfindən təqdim olunan Memorandum müzakirəyə çıxarıldı. Sənəddə hərbi gücdən istifadə son çarə kimi qeyd olunur və bunun üçün hələ də vaxtın gəlmədiyi göstərilirdi. ABŞ-Britaniya-İspaniya qətnamə layihəsi veto ehtimalı səbəbindən ümumiyyətlə səsverməyə çıxarılmadı. 2003-cü il martın 17-də C.Buşun S.Hüseyn və oğullarından könüllü olaraq hakimiyyətdən əl çəkməyi və 48 saat ərzində İraqı tərk etməyi tələb etməsindən və İraq liderinin bu ultimatumu qəbul etməkdən imtina etməsindən sonra müharibə reallığa çevrildi.

Nəticə

Beləliklə, 2003-cü il martın 20-də ABŞ-nin rəhbərliyi ilə koalisiya qüvvələri "İraq Azadlığı" kod adlı hərbi əməliyyata başladılar. 2003-cü il aprelin 9-da paytaxt Bağdad müqavimətsiz alındı, aprelin 15-də isə S.Hüseynin doğulduğu Tikrit şəhəri ələ keçirildi. Hərbi əməliyyatlar nəticəsində S.Hüseynin başçılıq etdiyi İraq rejiminin ləğvinə nail olundu.

Məsələnin siyasi tərəfinə gəlincə, İraq böhranı beynəlxalq münasibətlər sistemində cərəyan edən siyasi proseslərin göstəricisi, indikatoruna çevrildi. Bu, ABŞ-nin dünya siyasətində aparıcı rolunu təsdiqlədi, eyni zamanda, digər siyasi təsir mərkəzlərinin də proseslərə fəal şəkildə müdaxilə imkanlarını göstərdi.

Ədəbiyyat

1. Bağırova, A. (2010). 2003-cü il İraq müharibəsi ərəfəsində böyük güclərin siyasətinə dair. *Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası*, №1, 93-98.
2. Blix, H. (2004). *Disarming Iraq*. Pantheon.
3. *Kaninskaya, V.N. (2003). Voennaya aktsiya v Irake: pozitsiya Frantsii. Irakskii krizis. Mezhdunarodnyi i regional'nyi kontekst, IV RAN, 94-100.*
4. Keegan, J. (2004). *The Iraq War*. Knopf.
5. Kuznetsov, V. (2010). Amerikanskoe obshchestvennoe mnenie i ispol'zovanie voennoi sily: Period prezidentstva Dzh.Busha-mladshego (2001-2009 gg). LIBROKOM.
6. Lopez, G., Cortright, D. (2004). Containing Iraq: Sanctions Worked. *Foreign Affairs*, №4, 32-36.
7. National Security Strategy of the United States (2002): https://georgewbush-whitehouse.archives.gov/nsc/nss/2002/
8. *O polozhenii v strane*. (2002). Dokument, predstavlennyi prezidentom Dzh.Bushem Kongressu SSHA.
9. *Pis'mo ministra inostrannykh del Iraka Nadzhi Sabri na imya General'nogo sekretarya OON*. (2002). // https://lenta.ru/news/2002/11/24/letter/
10. Secretary of State Addresses the U.N. Security Council. (2003). Secretary Powell Addresses The United Nations. // https://georgewbush-whitehouse.archives.gov/news/releases/2003/02/20030205-1.html
11. Sinovets, P.A., Grebtsov, V.V. (2004). Ob ehvolyutsii amerikanskoi strategii sderzhivaniya na primere Iraka. *Blizhnii Vostok i sovremennost'*, №24, 115-124.
12. Sharipov, U.Z. (2010). *Persidskii zaliv: Obostrenie politicheskoi i voennoi situatsii i mezhdunarodnykh otnoshenii v kontse XX – nachale XXI vv. IV RAN*. US, UK & Spain Draft UN Security Council Resolution on Iraq Foreign & Commonweath Office News //

https://news.un.org/en/story/2003/03/62132-uk-us-and-spain-wont-seek-vote-draft-resolution-may-take-own-steps-disarm-iraq
13. Troitskii, M. (2004). Evropeiskii soyuz v mirovoi politike. *Mezhdunarodnye protsessy. Teoriya mezhdunarodnykh otnoshenii i mirovoi politiki*, №2, 91-97.
14. *Vneshnepoliticheskaya strategiya respublikanskoi administratsii SSHA (2001-2002 gg.)* (2002). ISKR AN.

Daxil oldu: 08.04.2025
Qəbul edildi: 14.07.2025

DOI: https://doi.org/10.36719/2789-6919/47/15-19

Yeganə Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8319-8849
yeganememmedova.doc@gmail.com

Məktəbəqədər yaş dövründə düzgün nitq və tələffüz vərdişlərinin formalaşdırılması: metod və yanaşmalar

Xülasə

Məktəbəqədər yaş dövründə ana dili uşaqların zehni və mənəvi inkişafında həm qaynaq, həm də təsir vasitəsi kimi çıxış edir. Uşaqlar təxminən iki yaşından etibarən danışmağa başlayır və 6-7 yaşlarında artıq sosial ətrafla tam ünsiyyət qurmaq qabiliyyəti əldə edirlər. Nitqin inkişafı sahəsində həyata keçirilən fəaliyyətlərdən biri də düzgün və ədəbi tələffüz bacarıqlarının formalaşdırılmasıdır. Bu istiqamət şifahi nitqin formalaşmasında böyük rol oynayır. Səslərin düzgün tələffüzünə yönəlik fəaliyyətlərə diqqətlə və mərhələli yanaşmaq lazımdır. Belə işlər Azərbaycan dilinin fonetik və orfoepik qaydalarına əsaslanaraq təşkil olunur ki, bu da sözlərin norma daxilində ifadəsinə xidmət edir. Fonematik dinləmə bacarığı, nəfəsin idarə olunması, səsin ahəngi və intonasiya ilə işləmə bacarıqları səs mədəniyyətinin əsas komponentlərindəndir. Əgər bir uşaq səsləri və sözləri düzgün səsləndirə bilmirsə, onun söz ehtiyatı geniş və cümlələri qrammatik cəhətdən düzgün olsa belə, dedikləri başa düşülməyə bilər. Bu səbəbdən də uşaqlarda erkən yaşlardan səslərin düzgün tələffüzü və fonetik vərdişlərin formalaşdırılması zəruridir. Məktəbəqədər mərhələdə olan uşaq fonematik dinləmə bacarığını inkişaf etdirməli, dilin bütün səslərini düzgün səsləndirməli, sözlərdəki səslərin və hərflərin miqdarını və ardıcıllığını müəyyənləşdirməyi, yalnız bir səslə fərqlənən sözləri ayırd etməyi bacarmalıdır.

Açar sözlər: *ana dili, səs tələffüzü, fonematik dinləmə, nitq mədəniyyəti, metodika*

Yegana Mammadova
Azerbaijan State Pedagogical University
PhD in Pedagogy
https://orcid.org/00000-0001-8319-8849
yeganememmedova.doc@gmail.com

Formation of Correct Speech and Pronunciation Habits in Preschool Age: Methods and Approaches

Abstract

The native language plays a fundamental role as both a tool and a source in the intellectual and moral upbringing of preschool-aged children. Typically, children begin to speak around the age of two and by six or seven years old, they can effectively communicate with those in their environment. A key focus in speech development is nurturing proper literary pronunciation. This area of work is especially critical for fostering fluent oral communication. Efforts to teach correct sound articulation should be approached carefully and methodically. Such activities are grounded in the phonetic and orphoepic rules of the language, ensuring that words are pronounced in accordance with accepted linguistic norms. Elements such as phonemic awareness, breath control, modulation of vocal tone, and appropriate use of intonation are integral parts of developing speech sound culture. A child who struggles with accurate pronunciation—even with a broad vocabulary and correct grammar—may still be difficult to understand. For this reason, attention must be given from an early age to the phonetic quality of speech and to forming habits of clear articulation. Prior to

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

entering school, children should be able to distinguish sounds by ear, pronounce every sound in the language accurately, identify the number and sequence of letters and sounds in words and recognize words that vary by a single sound.

Keywords: *native language, articulation, phonemic listening, speech culture, methodology*

Giriş

Nitq insan həyatında əvəzolunmaz yer tutur və bu, hər kəsə yaxşı məlumdur. İnsanlar danışıq vasitəsilə öz düşüncə və hisslərini bölüşür, qarşılıqlı anlaşma yaradır, arzularını və istəklərini ifadə edirlər. Nitq insan münasibətlərində güclü təsir alətidir. Söz insanlarda güvən hissi oyadır, onları əməksevərliyə, cəsarətə ruhlandırır, pis vərdişlərdən çəkindirir, sevindirir, kədərləndirir və hətta güldürə də bilir. İnsan öyrənmə və tərbiyə prosesində əsasən sözə, yəni dilə əsaslandığı üçün dil təlim və tərbiyənin ən əsas vasitələrindən biri kimi çıxış edir. Uşağın təlim və tərbiyəsinin keyfiyyəti, onun düşüncə qabiliyyətinin inkişaf səviyyəsi və şəxsiyyət kimi formalaşması, ilk növbədə, ana dilinə nə dərəcədə yiyələndiyindən asılıdır. Müşahidələr və praktiki təcrübə göstərir ki, məktəbəqədər müəssisələrdə aparılan təlim-tərbiyə işinin səmərəliliyi uşaqlara ana dilinin öyrədilməsindən birbaşa asılıdır (Rəhimov, 2003). Ana dili məktəbəqədər yaş dövründə uşağın həm intellektual, həm də mənəvi inkişafının əsas qaynağı və vasitəsidir. Uşaqlar, adətən, iki yaşından danışmağa başlayır və 6-7 yaşlarında artıq ətrafdakılarla tam əlaqə qura bilirlər. Ana dili uşağı cəmiyyətin xarakteri, dəyərləri, tarixi və insanların davranış tərzi ilə elə bir formada tanış edir ki, bunu başqa heç bir mənbə bu qədər dolğun verə bilməz. Bu səbəbdən də, uşaqların düzgün, aydın və məntiqli nitq bacarığına yiyələnməsi məktəbəqədər tərbiyənin əsas hədəflərindən biridir. Təfəkkürlə sıx əlaqəli olan nitq iki mühüm vəzifə yerinə yetirir: o, həm ünsiyyət vasitəsidir, həm də düşüncə formasını təşkil edir. İnsan daxili nitq vasitəsilə fikirlərini sözlərlə ifadə edir. Bu gün ana dilini mənimsəmə prosesi məktəbəqədər təlim-tərbiyə işinin vacib tərkib hissəsi hesab olunur. Uşağın nitq və düşüncə qabiliyyətinin inkişafı, dünyanı dərk etməsi və şəxsiyyət kimi formalaşması bilavasitə ana dili ilə bağlıdır. Gənc nəsli gündəlik həyatda, əməkdə və ictimai fəaliyyətlərdə ana dilinin imkanlarından istifadə etməyə yönəltmək təlimin hər mərhələsində önəmli vəzifədir (Həsənov, 2009).

Nitqin inkişafına yönəlmiş fəaliyyətlər arasında ədəbi tələffüz bacarıqlarının formalaşdırılması əsas istiqamətlərdən biridir. Şifahi nitqin formalaşmasında bu sahədəki işlər xüsusi əhəmiyyət kəsb edir. Səslərin düzgün tələffüzünə yanaşma diqqətlə aparılmalıdır. Nitq səsləri üzərində aparılan məşğələlər dilimizin fonetikasına və orfoepik qaydalarına əsaslanmalıdır. Bu isə uşaqlarda sözlərin düzgün tələffüz vərdişlərinin formalaşmasına imkan yaradır. Fonematik eşitmə bacarığı, nəfəsin düzgün idarə olunması, səsin tonu və intonasiyanın düzgün istifadəsi nitqin səs mədəniyyətinin ayrılmaz tərkib hissəsidir (Quliyeva, 1994). Əgər uşaq səsləri və sözləri düzgün tələffüz etmirsə, onun nitqi qrammatik cəhətdən düzgün olsa da, başqaları üçün aydın olmayacaq. Bu səbəbdən də uşaqlarda erkən yaşlardan fonetik bacarıqları, səslərin və sözlərin düzgün tələffüzünü inkişaf etdirmək olduqca vacibdir. Məktəbə başlamazdan öncə uşaq fonematik eşitməni mənimsəməli, dilin bütün səslərini aydın şəkildə tələffüz etməli, sözlərdə səslərlə hərflərin say və ardıcıllığını ayırd etməyi və yalnız bir səslə fərqlənən sözləri tapmağı bacarmalıdır (Hacıyeva, 1992).

Tədqiqat

Uşaqlarda nitqin sağlam və düzgün formalaşması onların ədəbi dil qaydalarına nə dərəcədə yiyələnmələri ilə sıx bağlıdır. Məktəbəqədər dövrdə əsas ünsiyyət vasitəsi şifahi nitq olduğu üçün onun aydın və normativ şəkildə inkişafına xüsusi diqqət yetirilməlidir. Nitqin mənimsənilməsi üçün ilk növbədə uşaq dilin fonemlərini dəqiq tələffüz etməyi, onların artikulyasiyasını və intonasiyanı düzgün tətbiq etməyi bacarmalıdır. Hər bir səslə bağlı düzgün tələffüz vərdişləri bütövlükdə səslərin düzgün səslənməsi ilə bağlıdır. Ədəbi tələffüzün təmin edilməsi üçün yerli ləhcə və dialekt elementlərinin danışığa daxil olmamasına nəzarət edilməlidir (Paşayeva, 2007). Araşdırmalar göstərir ki, bir çox ailələrdə uşaqların, xüsusilə nitq inkişafının nəzarəti nənə-baba və ya yaşlı ailə üzvlərinə tapşırılır. Bu şəxslərin nitqində tez-tez dialekt sözlərinə və lokal ifadələrə rast gəlindiyi üçün bu hallar uşaqların danışıq tərzinə mənfi təsir göstərir. Altı yaşına qədər ailədə öyrəndiyi danışıq tərzi uşağın yaddaşında möhkəm yer tutur. Məktəbə başladıqda isə uşaq müəllim, valideyn və nənə-baba

arasında danışıq fərqliliyi ilə üzləşir və bu, onda çaşqınlıq yaradır. Bu səbəbdən uşaqlarla ünsiyyətdə ədəbi dil qaydalarına əsaslanmaq, tələffüzə diqqətlə yanaşmaq vacibdir. Bu məqsədlə həm ailədə, həm də bağçalarda ümumi nitq qaydaları müəyyən olunmalı və sistemli tətbiq edilməlidir. Uşaqlara Azərbaycan dilinin fonetik qaydalarını ardıcıl və məqsədyönlü şəkildə öyrətmək olduqca vacibdir. Bu işin effektivliyi tərbiyəçinin ədəbi tələffüz bacarığına bilavasitə bağlıdır. Tərbiyəçi öz nitqində orfoepik norma və qaydalara əməl etməli, uşaqlara nümunə olmalıdır. Uşaqlarla aparılan işdə tələffüz tempi də diqqətə alınmalıdır. Sürətli danışıq nəticəsində səslər və hecalar buraxılır, sözlər anlaşılmaz olur ki, bu da nitqin axıcılığına və dəqiqliyinə zərər verir (Kərimov, 2003).

Təəssüf ki, bəzi tərbiyəçilər uşaqların ümumi nitq inkişafına önəm versələr də, səslərin düzgün tələffüzünə yetərincə diqqət ayırmırlar. Halbuki uşaqlar nitqi ətrafdakıların danışığını yamsılamaqla öyrənirlər. Bağçada və ev mühitində aparılan müşahidələr göstərir ki, bu dövrdə uşaqların nitqi çox vaxt nəzarətsiz qalır, ya da bu iş sistemsiz şəkildə aparılır. Nəticədə uşaqlar tələffüzdə ciddi səhvlərə yol verirlər. Nitqin səs aspekti mərhələli şəkildə mənimsənilir. Məktəbəqədər yaşlı uşaqlar bəzən səsləri və hecaları buraxır, yerini dəyişir və qeyri-aydın şəkildə tələffüz edirlər. Bu nöqsanlar onların psixoloji davranışlarında da əksini tapır – onlar daha qapanıq, hövsələsiz və maraqsız görünürlər və əqli inkişafdan geridə qala bilərlər. Bu cür uşaqlar məktəb yaşına çatanda ciddi çətinliklər yaşayırlar. Nitqindəki qüsurlar üzünə vurulduqda isə uşaq inciyir, qapanır, əsəbi olur və tərbiyəçidən uzaqlaşır (Kərimov, 2002).

Bəzən uşağın səsləri düzgün səsləndirməməsinin yaşla bağlı keçici hal, yoxsa tələffüz pozuntusu olmasını ayırd etmək çətin olur. Bu zaman valideynin məsuliyyəti artır. Uşağının qeyri-düzgün, lakin "şirin" danışığını bəyənən gənc valideynlər bu səhvləri daha da möhkəmləndirə bilərlər. Halbuki vaxtında mütəxəssis – loqopedlə məsləhətləşmək bu halların qarşısını ala bilər. Məktəbəqədər təhsil müəssisələrində düzgün tələffüz vərdişlərinin formalaşdırılmasında oyunlar çərçivəsində təşkil olunan imitasiya üsulu geniş tətbiq olunmalıdır. Bu üsula əsasən, uşaqlar tərbiyəçinin dodaq və ağız hərəkətlərini, səsinin tonunu müşahidə edərək səslərin düzgün artikulyasiyasını öyrənməli və özləri də bu səsləri çıxarmağa çalışmalıdırlar (Nəzərov, 2011). Təbii ki, bu üsul yalnız tərbiyəçi ədəbi nitq normalarına tam şəkildə yiyələndikdə effektiv nəticə verir. İmitasiya yolu ilə nitqə yiyələnmə prosesinə erkən yaşlarda başlanılır və məktəb dövründə də davam edir. Kiçik qruplarda oyunlar vasitəsilə heyvan, əşya və ya hadisə səslərini təqlid etməklə bu bacarıqlar inkişaf etdirilə bilər. Rollu və hərəkətli oyunlar, səhnələşdirmə və dramlaşdırma uşaqlara tərbiyəçini təqlid etməyə imkan yaradır (Məmmədova, 2007).

Tərbiyəçi uşaqlara tez-tez suallar verməli və bu suallar getdikcə daha məntiqi və əqli nəticə tələb edən səviyyəyə çatdırılmalıdır (məsələn: "Niyə?", "Nəyə görə?"). Sualların tərtibində intonasiya, vurğu və məzmun dəqiqliyi mühüm rol oynayır. Oyuncaqların, şəkillərin və hərəkətlərin nümayişi kimi əyani üsullar şifahi metodlarla birlikdə tətbiq edilməlidir. Emosional ifadəlilik üçün səhnələşdirilmiş oyunlar nitqin təbii və canlı şəkildə inkişafına şərait yaradır. Hər hansı bir səslə bağlı məşğələlərdə həmin səsin işlədildiyi sözləri tapmaq, həmin sözləri demək, yanıltmac və şeir söyləmək kimi tapşırıqlar istifadə olunmalıdır. Uşaqlar vəznli nitqə və şeirlərə maraq göstərirlər. Əgər şeir onların yaşına və inkişaf səviyyəsinə uyğun deyilsə, bu zaman folklor nümunələrinə – yanıltmac, tapmaca, saymacalar və s. müraciət etmək tövsiyə olunur. Bu zaman uşağa danışılan mövzunu daha yaxşı başa düşmək üçün əvvəlcə canlı və ya cansız obyektlə tanışlıq təşkil edilməlidir. Bu cür emosional və təəssüratverici yanaşma uşağın sözlərlə olan bağlarını daha dərindən qavramasına imkan verir. Dil və dodaq hərəkətlərini inkişaf etdirmək üçün müxtəlif maraqlı oyunlardan istifadə edilməlidir. Bu oyunlarda tərbiyəçi səslərin düzgün tələffüzünü nümayiş etdirir, uşaqlar isə onu təqlid edərək danışıq orqanlarını hərəkətə gətirirlər. Səsləri təqlid edərkən səslərin çıxarıldığı mənbə və ya obyektin uşaqlara tanış olub-olmaması öncədən yoxlanmalıdır (Kərimov, 1997).

Məsələn, "Qəribə torba" oyununda tərbiyəçi içərisinə müxtəlif heyvan və quş fiqurları yerləşdirilmiş torba hazırlayır. Uşaq oyuncağı torbadan çıxarıb adını çəkir, səsini təsvir edir və özü həmin səsi təqlid edir. "Xoruz" oyununda uşaqlar dövrə quraraq otururlar, ortada isə xoruzun "stolu" yerləşdirilir.

Tərbiyəçi xoruzun papağını göstərərək uşaqlardan soruşur:

– Uşaqlar, bu nə papağıdır? (xoruzun)

– Bəli, bu, xoruzun papağıdır. Gəlin 10-a qədər sayaq, kim axırıncı olsa, o, xoruz olur. Xoruz seçilir və həmin uşaq papağı başına keçirir. Tərbiyəçi uşağın qulağına deyir ki, stula oturanda "quqquluqu" deyərək banlasın. Sonra tərbiyəçi və uşaqlar birgə oxuyurlar:

Ay pipiyi qan xoruz!
Gözləri mərcan xoruz!
Sən nə tezdən dursursan?
Qışqırıb banlayırsan,
Qoymursan yatmağa,
Ay canım məstan xoruz!

Uşaqlar xoruzun səsini bir neçə dəfə təqlid edir, daha sonra yeni "xoruz" seçilir. Tərbiyəçi bu zaman səslərin düzgünlüyünə, intonasiyaya və ifadəliliyə xüsusi diqqət yetirir. Eyni zamanda "Qatar" oyununda uşaqlar bir-birinin ardınca sıraya düzülüb qatarın səsini və hərəkətini təqlid edirlər (məsələn, "du-du-du", "ta-ta-ta", "fışş-fışş"). Səs təqlidi məqsədilə hazırlanmış şeirlər və hekayələr də istifadə oluna bilər. Məsələn, meşəyə səyahətlə bağlı hekayədə quşların səsi, çayın axışı, ağacların xışıltısı, həşəratın vızıltısı təsvir edilə bilər. Bununla yanaşı, tərbiyəçi loqopedik xarakterli tədbirlərə də diqqət yetirməlidir, çünki bəzən oyun və məşğələlər təkbaşına gözlənilən nəticəni verməyə bilər (8).

Nəticə

Uşaqlarda düzgün və səlis tələffüz vərdişlərinin formalaşdırılması məqsədilə, istər kiçik yaş qruplarında, istərsə də məktəbəhazırlıq mərhələsində aparılan fəaliyyətlərdə aşağıdakı tələblərin yerinə yetirilməsi vacib sayılır:

Nitqi dinləmə və eşitmə bacarıqları sahəsində:

1. Uşaq ardıcıl 10-15 dəqiqəlik şifahi nitqi diqqətlə dinləyə bilməlidir;
2. 25-30 dəqiqəlik söhbət və ya dialoqa fəal şəkildə qoşulmaq bacarığına malik olmalıdır;
3. Radio, televizor və ya maqnitofon kimi texniki vasitələrdən səslənən danışığı – istər aydın, istərsə də getdikcə zəifləyən səslə – anlayaraq izləyə bilməlidir (Məmmədova, 2019).

Fonetik eşitmə və tələffüz bacarıqları sahəsində:

1. Uşaqlar nitq səslərini həm tələffüz edənin ağız hərəkətlərinə baxaraq, həm də məsafədən eşidərək bir-birindən ayıra bilməlidirlər;
2. Sadə cümlələrin neçə sözdən ibarət olduğunu müəyyən etmə bacarığı formalaşmalıdır;
3. Cümlədəki sözləri ayrılıqda ayırd etməyi bacarmalıdırlar;
4. Asan sözləri hecalara bölmək qabiliyyətinə yiyələnməlidirlər;
5. Ayrı-ayrı səsləri, həmçinin, heca daxilindəki səsləri düzgün səsləndirməyə dair ilkin bacarıqlar formalaşdırılmalıdır;
6. Uşaq söz içində səslərin mövqeyini – əvvəldə, ortada və ya axırda olmasını – təyin edə bilməlidir;
7. Hər bir nitq səslərinin hansı heyvan, quş və ya əşyanın çıxardığı səsə bənzədiyini fərqləndirməyi bacarmalıdırlar;
8. Səsləri yerləşdiyi yerə uyğun şəkildə – uzun və ya qısa – tələffüz etməyi bacarmalıdırlar;
9. Sadə sözləri Azərbaycan ədəbi dilinin tələffüz normalarına uyğun şəkildə səsləndirməyi bacarmalıdırlar;
10. Danışıq zamanı fonetik, leksik və morfoloji dialekt sözlərinin istifadəsinə yol verməməlidirlər;
11. Sözlərdə səsin düşməsi, artıq səs əlavə olunması, bir səsin başqa səslə əvəzlənməsi və ya səslərin yerlərinin dəyişməsi kimi tələffüz xətalarına yol verilməməlidir.

Ədəbiyyat

1. Hacıyeva, Ə.H. (1992). *Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı*. Maarif.
2. Həsənov, A.M. (2009). *Məktəbəqədər pedaqogika*. Nasir.
3. Kərimov, Y.Ş. (2003). *Ana dilinin tədrisi metodikası*. Nasir.
4. Kərimov, Y.Ş. (2002). *Uşaq məktəbə gedir.* Maarif.
5. Kərimov, Y.Ş. (1997). *Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası*.
6. Quliyeva, S., Balıyev, H. (1994). *Azərbaycan dili təlimi və nitq inkişafı metodikası.*
7. Məmmədova, A.M. (2007).*Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması*. ADPU.
8. *Müasir uşaq bağçalarında təlimin təşkili*. (2011). Apostrof.
9. Məmmədova, Y.X. (2019). *Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları.* ADPU.
10. Nəzərov, A.M., Kərimova, Z.M., Eminova, G.T. (2011). *Məktəbəqədər pedaqogika.*
11. Paşayeva, Ş.R. (2007). *Ana dili tədrisində nəzəri və praktik məsələlər.* Təhsil.
12. Rəhimov, A.N. (2003). *Ana dilinin tədrisi metodikası*. Nurlan.

Daxil oldu: 11.04.2025
Qəbul edildi: 16.07.2025

DOI: https://doi.org/10.36719/2789-6919/47/20-25

Zəhra İslamova
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9530-4263
zahraislamova@bsu.edu.az

Bakı və ətrafında orta əsrlərə aid vəqf əmlakları

Xülasə

Bu məqalədə XIII–XVII əsrlərdə Bakı və ətrafında yerləşən vəqf əmlaklarının dini, sosial və iqtisadi funksiyaları araşdırılır. Tədqiqat, Şirvanşahlar və Səfəvilər dövründə formalaşmış vəqf sisteminin yerli ziyarətgahların – Əlibaba, Nardaran, Pirşağı və Mərdəkan pirlərinin, Əbu Səid Abdal Bakuyi, Seyyid Yəhya Bakuyi və Şeyx Molla Yusif Müskürünün türbə və zaviyələrinin – maliyyələşdirilməsindəki rolunu təhlil edir. İslam hüququndakı vəqf anlayışı, Şirvanşahlar dövründə həm dini legitimliyin gücləndirilməsi, həm də ictimai rifahın təmin olunması üçün geniş tətbiq olunmuşdur. Məqalə, fərman və kitabələrə əsaslanaraq vəqf əmlaklarının torpaq, bağ, su mənbəyi, nəzir və neft quyuları kimi müxtəlif formalarda mövcud olduğunu və mütəvəllilik institutunun bəzən irsi xarakter daşıdığını göstərir. Əbu Səid Abdal Bakuyinin neft gəlirləri ilə maliyyələşən vəqfi, dini və sosial müstəqilliyi ilə seçilir. Seyyid Yəhya və Şeyx Molla Yusifin vəqfləri isə təriqət yönümlü dini-tədris məqsədlərə xidmət etmişdir. Məqalədə həmçinin bu abidələrin müasir vəziyyəti, dövlətin dini-mədəni irsə qayğısı və turizm potensialı da dəyərləndirilmişdir. Bu araşdırma, Azərbaycanın İslam mədəniyyəti və Şiə kimliyinin tarixi əsaslarını anlamağa mühüm töhfə verir və orta əsrlərdə vəqf institutunun regional xüsusiyyətlərini işıqlandırır.

Açar sözlər: *vəqflər, Şirvanşahlar, Səfəvilər, İslam mədəniyyəti, dini memarlıq*

Zahra Islamova
Baku State University
PhD in History
https://orcid.org/0000-0002-9530-4263
zahraislamova@bsu.edu.az

Foundation Properties of the Middle Ages in Baku and its Surroundings

Abstract

This article investigates the religious, social and economic functions of foundation properties in Baku and its surroundings from the 13th to the 17th centuries. It analyzes the institutional role of the foundation system during the Shirvanshahs and the Safavis periods, focusing on sacred sites such as the Alibaba, Nardaran, Pirshaghi, and Mardakan shrines, and the tombs and mosques of Abu Said Abdal Bakuvi, Sayyid Yahya Bakuvi and Shaykh Molla Yusif Muskuri. Rooted in Islamic legal tradition, foundation institutions were widely used by the Shirvanshahs to consolidate religious legitimacy and provide public welfare. Based on historical decrees and epigraphic sources, the study shows that foundation assets included land, gardens, water sources, donations and even oil wells. The article highlights the hereditary nature of the mutawalli (custodian) system and provides a detailed case study of Abu Said's foundation, funded by oil revenues and marked by its religious and social autonomy. In contrast, the foundation of Sayyid Yahya and Shaykh Molla Yusif were primarily oriented toward religious education and Sufi practice. The article also assesses the current state of these shrines, emphasizing state-led restoration efforts and tourism potential. This research contributes to a deeper understanding of the historical foundations of Shia identity and Islamic

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

culture in Azerbaijan, shedding light on the regional characteristics of waqf institutions in the medieval Caucasus.

Keywords: *foundation, the Shirvanshahs, the Safavids, Islamic culture, religious architecture*

Giriş

Bakı və ətrafında yerləşən vəqf əmlaklarının XIII–XVII əsrlərdəki tarixi inkişafı Azərbaycanın İslam mədəniyyəti, dini memarlığı və sosial-iqtisadi strukturunun öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu təhlil, Şirvanşahlar və Səfəvi dövlətləri dövründə Bakının dini mərkəz kimi rolunu, Əlibaba piri, Nardaran piri, Pirşağı və Mərdəkan pirləri, Əbu Səid Abdal Bakuyi, Seyyid Yəhya Bakuyi və Şeyx Molla Yusif Müskürü kimi ziyarətgahların vəqf əmlakları və onların idarəçilik mexanizmlərini araşdırır. Tədqiqat ilkin mənbələrə (fərmanlar, kitabələr) əsaslanaraq bu vəqflərin dini, sosial və iqtisadi funksiyalarını təfərrüatlı şəkildə təhlil edir və onların Şirvanın tarixi-mədəni irsindəki yerini qiymətləndirir. Vəqf institutlarının təhlili Şirvanşahlar və Səfəvilər dövründə Bakının dini və iqtisadi mərkəz kimi rolunu dərindən anlamağa imkan verir. Xüsusilə neft quyuları kimi unikal iqtisadi resursların vəqf sisteminə inteqrasiyası, Azərbaycanın Xəzər sahili regionunun iqtisadi potensialını və vəqflərin strateji əhəmiyyətini vurğulayır. Mənbələrə əsaslanan sistemli təhlil və neft quyuları kimi unikal resursların vurğulanması mövzuya yenilik gətirir. Tədqiqat tarixi sənədlərə əsaslanaraq, vəqf idarəçiliyinin irsilik xarakterini və mərkəzi dövlət nəzarətini təhlil edərək, mövzuya yeni bir perspektiv gətirir. Bu təhlil, müasir dövrdə Azərbaycanın dini və mədəni kimliyinin köklərini anlamaq üçün aktualdır və regional tarixşünaslıqda yeni tədqiqatlara zəmin yaradır.

Tədqiqat

İslamda vəqf institutu və Şirvanşahlar dövründə tətbiqi. XIII–XIV əsrlərdə Bakı Şirvanşahlar dövlətinin mühüm mərkəzlərindən biri idi. Siyasi, iqtisadi və sosial baxımdan böyük əhəmiyyətə malik olan Bakı, eyni zamanda dini həyatın əsas dayaqlarından biri kimi çıxış edirdi. Bu şəhərdə və ətraf bölgələrdə bir çox pirlərin, türbələrin və ziyarətgahların yerləşməsi, onun dini mərkəz kimi rolunu təsdiqləyir. Şirvanşahlar dövləti, həm Sünni, həm də Şiə ənənələrinin bir arada mövcud olduğu bir mühitdə fəaliyyət göstərmiş və bu dini müxtəlifliyi idarə etmək üçün mütəşəkkil vəqf sisteminə söykənmişdir. İslam dünyasında vəqf anlayışı, cəmiyyətin dini və sosial strukturlarının qorunması və davamlılığının təmin olunması məqsədilə inkişaf etdirilmiş hüquqi-maliyyə institutudur. Vəqf dedikdə, bir şəxsin Allah rizası üçün müəyyən bir əmlakı – torpaq, su mənbəyi, dükan, karvansara, hətta neft quyusu – ictimai və ya dini məqsədlə istifadə üçün ayırması nəzərdə tutulur. Vəqf olunan əmlakın mülkiyyəti dəyişməz qalır, lakin ondan əldə olunan gəlirlər yalnız müəyyənləşdirilmiş dini və ya xeyriyyəvi məqsədlərə sərf olunur (Əfəndiyev, 2007). Xüsusilə Şiə ərazilərində, müqəddəs şəxsiyyətlərin məzarları üzərində qurulan türbələr və pirlər ətrafında vəqf sistemi daha güclü formalaşmışdır. Bu tip ziyarətgahların saxlanması, inkişafı, dini ayinlərin icrası, ziyarətçilərin qəbulu və kasıblara yardım kimi fəaliyyətlər üçün sabit və davamlı maliyyə mənbəyinə ehtiyac var idi. Bu səbəbdən, ziyarətgahlarla əlaqəli çoxsaylı vəqflər yaradılmış və onların idarəsi ya din xadimlərinə, ya da dövlət tərəfindən təyin olunmuş mütəvəllilərə tapşırılmışdır. Şirvanşahlar dövründə vəqflər yalnız dini məqsədlərlə deyil, eyni zamanda təhsil, səhiyyə və sosial təminat sahələrində də istifadə edilirdi. Mədrəsələrin, zaviyələrin, sufi dərgahlarının fəaliyyətini təmin etmək üçün əkin sahələri, bağlar, dükanlar və hətta bazarlar vəqf edilirdi. Bəzi hallarda vəqf olunan əmlakdan əldə olunan gəlirlər, mədrəsədə çalışan müəllimlərin, məscid imamlarının və dərvişlərin maaşlarının ödənilməsinə yönəldilirdi. Şirvanşahlar dövlətində vəqf institutunun tətbiqi, bu quruluşun yalnız dini deyil, eyni zamanda dövlət idarəçiliyi və iqtisadi inkişaf baxımından da strateji alət olduğunu göstərir. Vəqf əmlaklarının siyahıya alınması, onların qorunması üçün fərmanların verilməsi və mütəvəllilik sisteminin irsi xarakter daşıması bu institutun cəmiyyətin uzunmüddətli sosial strukturunda sabitlik təmin etdiyini sübut edir. Xüsusilə Bakı və Abşeron yarımadasında yerləşən torpaqların, bağların və hətta neft quyularının vəqf statusunda olması, Şirvanın iqtisadi potensialının dini strukturların qorunması və davamlılığına necə yönəldiyini göstərir. Bu, Şirvanşahların həm dini legitimlik qazanmaları, həm də əhali üzərində nüfuzlarını möhkəmləndirmək üçün vəqf sistemindən məqsədyönlü şəkildə istifadə etdiklərini sübut edir (Bayramlı, Şabiyev, 2016; Chelebi, 1983).

Orta əsrlərdə Bakı və ətrafında vəqf əmlakı ilə əlaqəli müqəddəs məkanlar:

Əlibaba piri: Şəhidlik və müqəddəslik. Məşhur pirlərdən biri Bakının 50 km-liyində yerləşən və şəhid qəbri üzərində qurulmuş Əlibaba piridir. Burada başdaşı üzərində ərəbcə epitafiya (mənzum şəkildə olan qəbirüstü yazı) belədir: "Bu qəbir rəhmətlik, bağışlanmış, xoşbəxt şəhid, yüksək Allahın rəhmətinə çatmış... yeddi yüz" (Nemət, 1992, s. 23-24). Mətndəki yazı "rəhmətlik, bağışlanmış, xoşbəxt şəhid" kimi ifadələrlə türbə sahibi olan şəhidin cənnətdəki yüksək məqamına işarə edir. Vəqf əmlakına dair dəqiq məlumat olmasa da, şəhidlik anlayışının İslamda müqəddəsliyi bu pirin dini və sosial əhəmiyyətini artırırdı. Vəqf idarəçiliyi haqqında məlumat yoxdur, lakin şəhid məqbərələrinin adətən nəzir gəlirləri ilə maliyyələşdirildiyi ehtimal olunur.

Nardaran piri: "Böyük sədr"in təşəbbüsü. Azərbaycan ərazisində İslam mədəniyyəti və dini memarlığının parlaq nümunəsidir. Nardaran Azərbaycanda Şiə İslamının güclü mərkəzlərindən biridir və tarixən dini liderlərin və ziyarətgahların yerləşdiyi bir məkan olub. Nardaran pirində qəbrin üzərinə belə yazılıb: "bu mübarək məscidin, Allahın salavatına yetişəcək evin bina olunmasına, iki müqəddəs məkanın (Məkkə və Mədinə - Z.İ.), hacıların seçilmişi, dövrün yeganəsi, böyük sədr Xacə Hacə Həmzə ibn Qutlu Mahmud Şahabadi - Allah onun müvəffəqiyyətini əbədi etsin – 765-ci ildə əmr etmişdir" (Nemət, 1992, s. 30-31). Bu, Elxanilər dövrünün sonlarına, Çobanilər sülaləsinə təsadüf edir. Vəqf əmlakının dəqiq tərkibi məlum olmasa da, Xacə Hacı Həmzənin yüksək statusu vəqf gəlirlərinin məscidin saxlanması və dini fəaliyyətlər üçün istifadə olunduğunu göstərir. İdarəçilik baxımından, "böyük sədr" titulu Xacə Hacı Həmzənin dini və ictimai lider kimi vəqfin maliyyə və inzibati məsələlərini idarə etdiyini güman edirik. Həmçinin, məscidin tikintisi, fəaliyyəti və davamlılığını təmin etmək üçün qurucunun və onun tərəfdarlarının vəqf əmlakları ayırdığı ehtimalı çox yüksəkdir.

Pirşağı və Mərdəkan pirləri. Pirşağı və Mərdəkandakı pirlər İslam mədəniyyəti baxımından mühüm əhəmiyyət kəsb edən abidələrdəndir. Pirşağıda Piri Şahi və Şeyx Məhəmmədə, Mərdəkanda isə "Pir Həsən" türbəsi orta əsrlərə aid müqəddəs yerlərdir (Nemət, 1992, s. 67-68). Bu pirlərə dair vəqf əmlakı və idarəçilik haqqında ətraflı məlumat yoxdur, lakin onların dini məkan kimi əhəmiyyəti yerli əhalinin dini təcrübələrində özünü göstərir. Vəqf gəlirlərinin nəzir və yerli torpaq gəlirləri ilə təmin olunduğu, yerli dini hakimlər tərəfindən idarə olunduğu ehtimal edilir.

Əbu Səid Abdal Bakuyi vəqfi. XV–XVI əsrlərdə Şirvanda vəqf institutlarının mühüm tərkib hissələri olmuş Əbu Səid Abdal Bakuyiyə məxsus türbə və zaviyə özünün sosial və iqtisadi funksiyaları ilə diqqət çəkir. Əbu Səid Abdal Bakuyi XVI əsrdə Bakıda yaşamış, alimliyi və kəramətləri ilə tanınmış bir dərviş olmuşdur. Onun qəbri və hücrəsi Bakı qala divarlarından kənarda, indiki Təzəpir məscidi ərazisində yerləşən "Xəlifə damı" adlanan yerdə idi. Hərbi əməliyyatlar nəticəsində onun məscidi və qonaq evi dağılmış, lakin 1817-ci ildə Hacı Qasım bəy tərəfindən bərpa edilmişdir (Bakıxanov, 2001, s. 158). Əbu Səidin neft quyusuna sahib olduğu və bu quyudan əldə etdiyi gəlirlə qonaqlarını təmin etdiyi, Sultan Ulçaytu Məhəmməd Xudabəndə ilə bağlı hekayədə dərvişin təvazökarlığı və əliaçıqlığı vurğulanır. Sultan ona bəxşiş vermək istəsə də, Əbu Səid artıq gəlirə ehtiyac duymadığını bildirir (Bakıxanov, 2001, s. 159). Sənədlərə əsasən, Şibani nefti və əkin yerləri Əbu Səidin məqbərəsinin xərcləri üçün vəqf edilmişdi və bu səbəbdən həmin vəqf əmlakı iqtisadi cəhətdən müstəqil idi. 1491-ci il vəqfnaməsi və 1591–1699-cu illər arasında verilmiş fərmanlar bu əmlakın irsi olaraq mütəvəllilərə verildiyini təsdiqləyir. Osmanlı işğalı dövründə (1578–1607) Şibanidəki vəqf əmlakının gəlirləri Osmanlı paşaları tərəfindən mənimsənilsə də, I Şah Abbas dövründə bu əmlak Şeyx Səidə qaytarılmış və gəlirləri məqbərənin ehtiyacları üçün istifadə olunmuşdur (Aşurbəyli, 2006, s. 370-371).

Vəqfnamənin təhlili göstərir ki, 1490/91-ci il vəqfnaməsi Şirvanşah Fərrux Yasarın Əbu Səid məqbərəsinə bağışladığı əmlakı təfərrüatlı şəkildə təsvir edir: Şibani əkin yeri və qatı neft quyusu, Şüvəlandakı beş üzüm bağı və meşə yeri, Bilgəhdəki üzüm bağı. Bu əmlak dini və xeyriyyə məqsədləri üçün vəqf edilmiş, mütəvəllilik isə Əbu Səidin kişi övladlarına tapşırılmışdır. Vəqf gəlirləri məqbərənin işıqlandırılması, kasıbların və dərvişlərin qidalanması üçün istifadə olunurdu. Vəqfnamədə hərbçilərə və varlılara gəlirdən pay verilməməsi, habelə vəqf qaydalarının dəyişdirilməsinə qarşı ciddi xəbərdarlıqlar yer alır (Aşurbəyli, 2006, s. 371).

Seyyid Yəhya Bakuyi və Şeyx Molla Yusif Müskürü Seyyid Yəhya Bakuyi XV əsrdə təriqət böyükləri arasında tanınmış bir şəxsiyyət idi. Onun məscidi, sovməəsi, mədrəsəsi və qəbri Bakı şəhərində hələ də mövcuddur (Bakıxanov, 2001, s. 159). Onun vəqf əmlakı haqqında ətraflı məlumat olmasa da, fəzilətləri və gözəl xasiyyətləri ilə məşhur olduğu qeyd edilir. Bu, onun vəqf institutunun sosial və dini rolunu gücləndirdiyini göstərir.

Şeyx Molla Yusif Müskürü. XV əsrdə Qarabağdan Qubanın Müskür nahiyəsinə köçmüş ailədən olub, Seyyid Yəhya Bakuyidən irşad xirqəsi almışdır. Onun nəvələri sultanların yanında əziz olmuş və rüsumat sahibi idilər. Şeyxin "Bəyanül-əsrar" adlı ərəbcə kitabı təriqət adətlərini və əşyanın xüsusiyyətlərini izah edir (Bakıxanov, 2001, s. 159). Onun məzarı və kəndi "Şeyxlər" adıyla məşhurdur, bu da onun vəqf əmlakının yerli əhəmiyyətini göstərir.

Əbu Səid Abdal Bakuyi, Seyyid Yəhya Bakuyi və Şeyx Molla Yusif Müskürü pirlərinin vəqfinə dair faktlara əsaslanaraq müqayisə etsək, görərik ki, Əbu Səid Abdal Bakuyinin vəqf əmlakı iqtisadi cəhətdən müstəqil və geniş əhatəli idi, çünki neft quyusu kimi unikal gəlir mənbəyi ilə təmin olunurdu (Petrushevskii, 1966; Yunusov, 2004). Şibani, Şüvəlan və Bilgəh kimi ərazilərdəki torpaqlar və üzüm bağları feodal torpaq sahibliyinin xüsusi kateqoriyasını təşkil edirdi. Buna müqabil, Seyyid Yəhya və Şeyx Molla Yusifin vəqfləri haqqında məlumatlar daha məhduddur, lakin onların da dini və sosial funksiyaları ilə əhəmiyyətli olduğu görünür. Vəqfin idarəçiliyi məsələsində Əbu Səidin vəqf əmlakında mütəvəllilik irsi xarakter daşıyırdı və yalnız onun kişi övladlarına keçirdi. Bu, vəqfin feodal institut kimi xüsusiyyətini gücləndirir. Seyyid Yəhya və Şeyx Molla Yusifin vəqflərində də oxşar irsilik prinsipi ehtimal olunur, çünki Şeyx Molla Yusifin nəvələri rüsumat sahibi olmuşdur (Fərzəlibəyli, 2003; Musəvi, 1967; Piriyev, 1978). Osmanlı işğalı dövründə (1578–1607) Əbu Səidin vəqf gəlirləri paşalar tərəfindən mənimsənilsə də, Səfəvi hakimiyyəti altında Şeyx Səidə qaytarılmışdır. Bu, vəqf əmlaklarının siyasi dəyişikliklərə həssas olduğunu göstərir.

Müasir dövrdə pirlərin və ziyarətgahların vəziyyəti. Tədqiqata cəlb edilmiş abidələr — Əlibaba piri, Nardaran, Pirşağı və Mərdəkan pirləri, Əbu Səid Abdal Bakuyi, Seyyid Yəhya Bakuyi və Şeyx Molla Yusif Müskürü abidələrinin müasir dövrdəki vəziyyəti haqqında məlumatlar məhdud ola bilər, çünki bu abidələrin bəziləri haqqında müasir dövrdə ətraflı sənədləşmə azdır.

1.Əlibaba piri Bakıdan 50 km məsafədə, Xəzər dənizi sahilində, Türkan qəsəbəsindəki köhnə qəbiristanlıqda yerləşir. Bu pir şəhid qəbri üzərində qurulmuşdur və yerli əhali tərəfindən müqəddəs sayılır. Müasir dövrdə Əlibaba piri dini turizm və yerli ziyarətlər üçün əhəmiyyətini qoruyub saxlayır.

2.Nardaran qəsəbəsində yerləşən Pirsəid məscidi XIV əsrə (1363–1364) aid memarlıq abidəsidir və Şirvan-Abşeron memarlıq məktəbi üslubunda inşa edilmişdir. Müasir dövrdə bu məscid həm dini, həm də tarixi-mədəni abidə kimi qorunur. Məscidin strukturunda müxtəlif dövrlərdə inşa edilmiş otaqlar var və onun ən qədim hissəsi qəbir və məscid otağıdır. Abidənin mühafizə olunduğu və yerli əhali tərəfindən aktiv şəkildə ziyarət edildiyi məlumdur.

3.Pirşağı və Mərdəkanda yerləşən pirlər İslam mədəniyyəti baxımından mühüm yer tutur. Bura daha çox yerli əhali üçün dini məkan kimi əhəmiyyətlidir və xüsusilə müalicəvi xüsusiyyətləri ilə tanınır. Mərdəkandakı Pir Həsən piri isə həm dini (çıldaq müalicəsi), həm də tarixi-mədəni baxımdan daha geniş əhəmiyyətə malikdir, çünki Hacı Zeynalabdin Tağıyev, Axund Hacı Mirzə Əbu Turab Axundzadə kimi tanınmış şəxslərin qəbirləri burada yerləşir. Mərdəkan ziyarətgahı 2000-ci və 2005-ci illərdə aparılan bərpa işləri nəticəsində həm yerli, həm də xarici turistlər üçün cəlbedici bir məkana çevrilmişdir.

4.Əbu Səid Abdal Bakuyinin türbəsi Təzəpir məscidi ərazisində yerləşir. Ötən əsrin ortalarına qədər "Xəlfədam" adlanan bu ərazi hazırda Təzəpir məscidi kompleksi kimi tanınır. Türbə zamanla dağıntılara məruz qalsa da, Bakı əsilzadələri tərəfindən dəfələrlə təmir olunub. 1817-ci ildə sonuncu Bakı xanı Hüseynqulu xanın kürəkəni Qasım bəy məscidi əsaslı şəkildə bərpa etdirib. XX əsrin əvvəllərində Nabat xanım Xocabəy qızı Aşurbəyli-Rzayeva tərəfindən yeni ibadətgah tikilib. Prezident İlham Əliyevin sərəncamı ilə aparılan son təmir-bərpa işləri nəticəsində Təzəpir məscidi müasir memarlıq incisinə çevrilib. Məscidin interyeri Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələri ilə bəzədilib, günbəz və minarələr qızıl lövhələrlə örtülüb, müasir işıqlandırma sistemləri quraşdırılıb. Kompleksdə 4100 kvadratmetr sahəsi olan inzibati bina və 250

yerlik konfrans zalı da inşa edilib. Əbu Səid Abdal Bakuyinin türbəsi hal-hazırda dini və mədəni əhəmiyyətini qoruyur və yerli əhali tərəfindən ziyarət olunur.

5.Seyyid Yəhya Bakuyinin ziyarətgahı Şirvanşahlar saray kompleksi daxilində yerləşir və müasir dövrdə də tarixi-mədəni abidə kimi qorunur. Bu ziyarətgahın saray daxilində yerləşməsi onun unikal dini və tarixi əhəmiyyətini göstərir. Seyyid Yəhya Bakuyi dünyaca məşhur sufi şeyxlərindən biri kimi tanınır və onun ziyarətgahı həm yerli, həm də xarici turistlər üçün maraqlıdır. Abidənin fiziki vəziyyəti Şirvanşahlar sarayının ümumi bərpa və qoruma işləri çərçivəsində saxlanılır. Sarayın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olması səbəbindən bu ziyarətgah da dövlət tərəfindən mühafizə olunur. Lakin xüsusi təmir və ya bərpa işləri haqqında dəqiq məlumat mənbələrdə qeyd olunmayıb. Şeyx Molla Yusif Müskürünün vəqfi və ziyarətgahı Qubanın Müskür nahiyəsində yerləşir və "Şeyxlər" kəndi ilə əlaqələndirilir. Müasir dövrdə bu abidənin vəziyyəti haqqında dəqiq məlumat məhduddur. Bu ziyarətgah yerli əhali tərəfindən müqəddəs məkan kimi ziyarət olunur, lakin dini turizm baxımından digər abidələr qədər məşhur deyildir.

Müasir dövrdə Azərbaycanda dini abidələrə dövlət səviyyəsində qayğı göstərilməsi bu abidələrin müasir dövrdə həm dini, həm də turizm baxımından əhəmiyyətini artırır. Bu abidələr Azərbaycanın Şiə və sufi ənənələrinin mühüm hissəsi kimi yerli əhali tərəfindən müqəddəs sayılır və ziyarət olunur. Gördüyümüz kimi, Əbu Səid Abdal Bakuyi (Təzəpir) ziyarətgahı müasir dövrdə əsaslı bərpa işləri nəticəsində yaxşı vəziyyətdə olub, dini turizm üçün cəlbedici məkandır. Seyyid Yəhya Bakuyinin ziyarətgahı Şirvanşahlar sarayı daxilində qorunur və UNESCO-nun mühafizəsi altındadır. Əlibaba, Nardaran və Şeyx Molla Yusif Müskürü abidələri isə daha lokal xarakter daşıyır və onların vəziyyəti haqqında məlumat məhduddur, lakin yerli əhali tərəfindən ziyarət olunduğu ehtimal edilir. Dövlət tərəfindən dini abidələrə göstərilən qayğı bu məkanların qorunmasında mühüm rol oynayır, lakin daha az tanınan abidələrin turizm potensialının artırılması üçün əlavə səylərə ehtiyac var.

Nəticə

Bakıda vəqf əmlaklarının tarixi inkişafı, Şirvanşahlar və Səfəvi dövlətləri dövründə (XIII–XVII əsrlər) İslam mədəniyyətinin və Şiə dini kimliyinin möhkəmləndirilməsində mühüm rol oynamışdır. Bakı və ətrafındakı vəqf əmlakları XV–XVII əsrlərdə dini, sosial və iqtisadi funksiyaları ilə mühüm rol oynamışdır. Əbu Səid vəqfləri geniş iqtisadi resursları (neft, əkinçilik, bağlar) və irsi mütəvəlliliklə fərqlənirdi. Səfəvi dövləti vəqfləri mərkəzi nəzarətlə qoruyaraq Şiə kimliyini möhkəmləndirmişdir. Əlibaba, Nardaran, Pirşağı və Mərdəkan pirləri daha lokal xarakter daşısa da, dini və sosial əhəmiyyətə malik idi. Seyyid Yəhya və Şeyx Molla Yusifin vəqfləri təhsil və təriqət fəaliyyətlərinə xidmət edirdi. Vəqf institutları feodal torpaq sahibliyinin xüsusi forması kimi iqtisadi sabitlik və dini-ideoloji funksiyaları birləşdirirdi. Əlibaba piri, Nardaran piri və digər müqəddəs məkanlar (Pirşağı, Mərdəkan) vəqf sistemi vasitəsilə maliyyələşdirilərək dini, sosial və iqtisadi funksiyaları dəstəkləmişdir. Şirvanşahlar dövründə başlayan və Səfəvi hökmdarları (Şah Təhmasib, Şah Abbas) tərəfindən genişləndirilən vəqf əmlakları, Bakının dini mərkəz kimi əhəmiyyətini artırmış, ziyarətgahların inşası və saxlanması üçün davamlı gəlir mənbələri təmin etmişdir. Bakının vəqf əmlakları XV–XVI əsrlərdə Şirvanın sosial-iqtisadi və dini həyatında mühüm rol oynamışdır. Vəqf institutunun irsilik xarakteri və feodal torpaq sahibliyi ilə bağlılığı bu təsisatların mürəkkəb xarakterini ortaya qoyur. Osmanlı və Səfəvi hakimiyyətləri dövründə vəqflərin idarə edilməsində fərqlər müşahidə olunsa da, onların dini və sosial rolu dəyişməz qalmışdır.

Ədəbiyyat

1. Aşurbəyli, S. (2006). *Şirvanşahlar dövləti*. Avrasiya Press.
2. *Azərbaycan tarixi*. (2007). Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Elm.
3. Bakıxanov, A. (2001). *Gülüstani-İrəm*. "Möminin" intişaratı.
4. Bayramlı, Z.H., Şabiyev, B.Ş. (2016). *Azərbaycan Səfəvi dövləti (XVI–XVII əsrlər)*. Avropa Nəşriyyatı.
5. Chelebi, E.H. (1983). *Kniga puteshestvii Seiakhatname*. Vyp. 3. Zemli Zakavkaz'ya i sopredel'nykh oblastei Maloi Azii i Irana. Nauka.

6. Əfəndiyev, O.A. (2007). *Azərbaycan Səfəvilər dövləti*. "Şərq-Qərb".
7. Fərzəlibəyli, Ş.F. (2003). *XV əsr Azərbaycan dövlətlərinin quruluşu*. "Elnur-P".
8. Nemət, M. (1992). *Azərbaycanda pirlər*. Azərnəşr.
9. Musəvi, T.M. (1967). *Bakı tarixinə dair orta əsr sənədləri*. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı.
10. Piriyev, V. (1978). *Azərbaycan XIII-XIV əsrlərdə*. Elm.
11. Petrushevskii, I.P. (1966). *Islam v Irane v VII - XV vekakh (kurs lektsii). Otv. red. V.I. Belyaev.* Izdatel'stvo Leningradskogo universiteta.
12. Yunusov, A.S. (2004). *Islam v Azerbaidzhane*. "ZamaN".

Daxil oldu: 04.04.2025
Qəbul edildi: 16.07.2025

DOI: https://doi.org/10.36719/2789-6919/47/26-31

Диляра Алиева
Бакинский Славянский Университет
доктор философии по филологии
https://orcid.org/0009-0009-1591-2399
delara@inbox.ru

Новый реализм в современной русской литературе: поиск новых форм

Резюме

Современная русская литература на рубеже веков отражает глубокие культурные и социальные изменения, происходящие в обществе. В этом контексте особенно значимо переосмысление реалистической традиции, которая, несмотря на долгую историю, продолжает трансформироваться и адаптироваться к новым условиям. Анализ художественного процесса последних десятилетий позволяет выявить тенденции, связанные с появлением «нового реализма» как формы отклика на вызовы времени.

Современное литературное направление, обозначаемое термином «новый реализм», представляет собой консолидированное культурно-художественное пространство, в рамках которого активную деятельность осуществляют целый ряд современных авторов, среди которых можно выделить З.Прилепина, Р.Сеченова, С.Шаргунова, Д.Гуцко, Г.Садулаева, И.Абузярова, А.Ганиеву, В.Пустовую и других.

Это течение, с одной стороны, объединяет молодых писателей, для которых прилагательное «новый» отражает не только специфику нарративных стратегий, но и выполняет функцию символической саморепрезентации в литературном дискурсе. С другой стороны, представители «нового реализма», позиционируя себя в оппозиции к постмодернистской эстетике, акцентируют внимание на необходимости возвращения к традициям классической русской прозы, основанной на психологическом антропоцентризме и социальной ангажированности. Несмотря на относительно краткую историю - чуть более десятилетия, - «новый реализм» обладает обширным корпусом художественной прозы, эссеистики и критических текстов, включая манифесты и авторские автобиографии. Хотя в последние два года интерес к этому направлению несколько снизился по сравнению с его пиковым периодом (примерно семь-восемь лет назад), его вклад в литературный процесс начала XXI века является значимым и заслуживает дальнейшего научного осмысления.

Ключевые слова: *новый реализм, художественная трансформация, правда жизни, миф и быт, бунт, растерянность, исследования, анализ*

Dilarə Əliyeva
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-1591-2399
delara@inbox.ru

Müasir rus ədəbiyyatında yeni realizm: yeni formaların axtarışı

Xülasə

Əsrin əvvəllərində müasir rus ədəbiyyatı cəmiyyətdə baş verən dərin mədəni və sosial dəyişiklikləri əks etdirir. Bu kontekstdə, uzun tarixə malik olmasına baxmayaraq, dəyişməkdə və yeni şərtlərə uyğunlaşmaqda davam edən realist ənənəni yenidən nəzərdən keçirmək xüsusilə vacibdir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

"Yeni realizm" adı ilə tanınan müasir ədəbi cərəyan, bir sıra çağdaş müəlliflərin – o cümlədən Z.Prilepin, R.Sençin, S.Şargunov, D.Qutsko, G.Sadulayev, İ.Abuzərov, A.Qəniyeva, V.Pustovaya və başqalarının – fəal iştirak etdiyi konsolidə olunmuş mədəni-bədii məkanı təmsil edir.

Bu tendensiya, bir tərəfdən, "yeni" sifətini yalnız narrativ strategiyaların xüsusiyyəti kimi deyil, həm də ədəbi diskursda simvolik özünü təqdimetmə aktı kimi qəbul edən gənc yazıçıları birləşdirir. Digər tərəfdən, "yeni realistlər" postmodernist estetikaya qarşı tənqidi mövqe sərgiləyərək, psixoloji antropomərkəzlik və sosial mövqe tutma kimi xüsusiyyətləri ilə seçilən klassik rus nəsrinin ənənələrinə dönüşün vacibliyini vurğulayırlar.

Cəmi on ildən bir qədər artıq tarixə malik olmasına baxmayaraq, "yeni realizm" geniş bədii nəsr, esseistika və tənqidi məqalələr korpusu ilə yanaşı, manifest və avtobioqrafik yazılarla da təmsil olunur. Son iki ildə bu istiqamətə marağın, təqribən yeddi-səkkiz il əvvəlki zirvə dövrü ilə müqayisədə müəyyən dərəcədə azaldığı müşahidə olunsa da, onun XXI əsrin əvvəllərindəki ədəbi prosesə verdiyi töhfə əhəmiyyətlidir və elmi araşdırmalara layiqdir.

Açar sözlər: *yeni realizm, bədii transformasiya, həyat həqiqəti, mif və gündəlik həyat, üsyan, qarışıqlıq, araşdırma, təhlil*

Dilara Aliyeva
Baku Slavic University
PhD in Philology
https://orcid.org/0009-0009-1591-2399
delara@inbox.ru

New Realism in Contemporary Russian Literature: Searching for New Forms

Abstract

Contemporary Russian literature at the beginning of the century reflects the profound cultural and social changes taking place in society. In this context, it is especially important to rethink the realistic tradition, which, despite its long history, continues to transform and adapt to new conditions. The contemporary literary movement known as "New Realism" constitutes a consolidated cultural and artistic sphere in which a number of current authors actively participate. Among them are Z.Prilepin, R.Senchin, S.Shargunov, D.Gutsko, G. Sadulayev, I.Abuzarov, A.Ganiyeva, V. Pustovaya and others.

On one hand, this trend unites young writers for whom the adjective "new" reflects not only a specific narrative strategy but also functions as a symbolic act of self-representation within the literary discourse. On the other hand, representatives of "New Realism" articulate a critical stance toward postmodernist aesthetics, highlighting the importance of a return to the traditions of classical Russian prose, characterized by psychological anthropocentrism and social engagement.

Despite its relatively brief history — slightly over a decade — "New Realism" possesses a substantial body of artistic prose, essays and critical texts, including manifestos and autobiographical writings. Although public interest in the movement has somewhat waned over the past two years compared to its peak seven to eight years ago, its contribution to the literary process of the early 21st century remains significant and warrants further academic attention.

Keywords: *new realism, artistic transformation, truth of life, myth and everyday life, rebellion, confusion, research, analysis*

Введение

Литературный процесс в России конца XX – начала XXI века отличается сложной структурой и многообразием. Хотя в этой области уже проведено множество исследований, вопросы, касающиеся функционирования и эволюции реализма, по-прежнему вызывают

споры. Попытки классифицировать его формы осложняются синтезом с постмодернистской традицией, разнообразием жанров и стилевых решений. Это свидетельствует о наступлении нового этапа в литературной истории. Современный реализм демонстрирует не только художественную трансформацию, но и изменения в восприятии со стороны критики и теории (Пономарева, 2017, с. 9). Он стремится к большей философской глубине, что ведёт к появлению новых разновидностей прозы: женской, религиозной, натурфилософской. При этом усиливается противостояние массовой и элитарной литературы, которое, в то же время, сопровождается тенденцией к их частичному объединению.

Новаторские формы письма усилили интерес авторов к композиционной организации текста. В некоторых случаях наблюдается динамичное, насыщенное событиями повествование, в других – фабула «уступает место фрагментарному изложению, где эпизоды связаны между собой только тематически, а не логически» (Кукушкина, 2019, с. 44). Изменения в общественно-политической обстановке напрямую отразились на литературной картине, поставив в центр художественного внимания новый взгляд на мир, полифоничный и неоднозначный. Это повлекло за собой обновление героя и актуализацию спора о трансформации или возрождении реализма как метода.

В таких условиях формируется концепция «нового реализма», идущая своими корнями к русской литературе XIX-XX веков. В 2010-е годы дискуссия о его природе обострилась, а само направление стало особенно заметным явлением на литературной сцене. Ещё недавно термин «реализм» ассоциировался с чем-то устаревшим, но теперь вновь вызывает интерес со стороны читателей, авторов и издателей.

Так называемый «новый реализм» ориентируется на принципы классической традиции, переосмысленные с учётом современных реалий. Ему присущи стилистическое разнообразие, внимание к повседневной жизни, отказ от единых канонов и изображение нетипичных героев в нестандартных обстоятельствах. Это направление не признаёт единых норм и допускает свободную интерпретацию действительности.

Таким образом, «новый реализм» – это не просто рецидив прошлого, а живая, гибкая форма, способная ответить на вызовы своего времени. Он объединяет в себе наследие классической литературы и свободу современных художественных решений, позволяя авторам говорить на актуальные темы простым, но глубоким языком. Благодаря открытости к разнообразным формам и сюжетам, он остаётся значимым явлением в литературе XXI века, сохраняя приверженность подлинности, смысловой плотности и вниманию к человеческому опыту. В.Пустовая, «новый реализм» выделяет как явление, противопоставляющее постмодернизму и ставит в связь с классическим реализмом, подчеркивая его отличие от «реализма – вообще» (Пустовая, 2004, с. 12).

Литературная картина изменилась: реализм пережил трансформацию как в своём художественном выражении, так и в восприятии со стороны критиков и теоретиков. Современный русский реализм стремится к более философски насыщенной и сложной форме, что стало основой для появления новых форм повествования – таких как женская, религиозная и натурфилософская проза. Кроме того, именно в этот период усиливается не только традиционное противопоставление массовой и элитарной литературы, но и проявляется их частичное сближение.

Исследование

Анализ современного литературного процесса требует осмысления и доказательства многообразия существующих направлений, особенно в прозе: от реализма и постмодернизма до фантастики, детектива, мемуарной и юмористической прозы. Попытки структурировать столь разнородный материал невозможны без учета различных теоретических подходов, а также без внимания к жанровым формам, формирующимся в зависимости от авторских замыслов и художественных установок.

Обращение к новым художественным формам привело к усиленному интересу авторов к структуре текста. Одни писатели добиваются выразительной и насыщенной повествовательной динамики, тогда как у других сюжет оказывается размытым: события представлены

как череда эпизодов, не всегда связанных между собой логически или обусловленных внутренним развитием фабулы.

Политические перемены повлекли за собой смену мировоззренческой оптики в литературе, способствуя формированию более сложной и неоднозначной картины действительности. Это отразилось как в тематике и проблематике произведений, так и в появлении нового типа героя. В этот период особенно остро встаёт вопрос: происходит ли трансформация реализма – как считают одни исследователи, или же можно говорить о его возрождении, что предполагают другие.

Реализм, как художественный метод, также переживает видоизменение –трансформируется не только его форма, но и отношение к нему со стороны литературной критики. Современный реализм устремлён к более философскому и сложному осмыслению реальности, что способствовало появлению особых направлений: женской, религиозной, натурфилософской прозы. В это же время усиливается противостояние массовой и элитарной литературы, однако наблюдается и их частичное сближение, что придаёт художественному процессу дополнительную сложность.

Типологический подход к анализу современной прозы предполагает изучение множества направлений – от классического реализма и постмодернизма до фантастики, мемуаров, детектива и юмористической литературы. Полноценная систематизация этих форм невозможна без учёта различных исследовательских взглядов и внимательного анализа жанровых моделей, формирующихся в зависимости от авторских установок и творческих задач.

This article analyzes the issue of seasonality in tourism observed in the Nakhchivan Autonomous Republic and its socio-economic consequences. It explores potential strategies for reducing seasonality and examines prospects for the development of long-term tourism. Based on international experiences, the paper proposes recommendations tailored to the context of Nakhchivan.

Keywords: *Nakhchivan, tourism seasonality, long-term tourism, Duzdagh Physiotherapy Center, innovation*

Giriş

Turizm sektoru müasir dövrdə regional iqtisadi inkişafın əsas dayaqlarından biri hesab olunur. Eyni zamanda sosial inkişafda da rolu getdikcə artır və yerli icmaların rifahına mühüm təsir göstərir. Xüsusilə zəngin təbii, mədəni və tarixi resurslara malik regionlarda turizmin inkişafı həm sosial rifahın yüksəlməsinə, həm də iqtisadi diversifikasiyaya töhfə verir.

Naxçıvan Muxtar Respublikası da turizm baxımından böyük potensiala malikdir. Lakin burada turizmin inkişafında əsas problemlərdən biri mövsümiliyin üstünlük təşkil etməsi və bunun nəticəsində turist axınının qeyri-bərabər paylanmasıdır. Sağlamlıq, mədəni, qış və ekoturizm kimi sahə

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

lərdə turizm məhsullarının inkişaf etdirilməsi sayəsində Naxçıvanda uzunmüddətli turizm modelinə keçid mümkün ola bilər.

Tədqiqat

Naxçıvan Muxtar Respublikasına turistlər əsasən yay aylarında gəlir. Xüsusilə yerli və qonşu ölkələrdən gələn turistlər Batabat yaylağı, Duzdağ sanatoriyası, Əshabi-Kəhf ziyarətgahı və digər məkanlara üstünlük verirlər. Qış və yaz aylarında isə turist sayı kəskin şəkildə azalır. 2022-ci ilin rəsmi məlumatlarına görə, yay mövsümündə turistlərin 65%-i qeyd olunan yerlərə səfər edib, qış aylarında isə bu göstərici 15%-ə qədər enmişdir (Naxçıvan MR Turizm Departamenti, 2023).

Naxçıvanda turizmin mövsümi xarakter daşıması, mövcud turizm resurslarının ilboyu səmərəli istifadəsinə mane olur və yerli əhali üçün bu sahədə daimi iş yerlərinin yaranmasını çətinləşdirir. Mövsümiliyin aradan qaldırılması və uzunmüddətli turizmin inkişafı üçün mövcud potensial nəzərə alınaraq müxtəlif istiqamətlərdə yeniliklərin tətbiqi vacib sayılır.

Xüsusilə sağlamlıq turizmi sahəsində innovativ yanaşmaların tətbiqi bir neçə mühüm səbəblə əhəmiyyətlidir. İlk olaraq, bu yeniliklər göstərilən tibbi xidmətlərin keyfiyyətini artırmağa kömək edir. Eyni zamanda, xərclərin azalması nəticəsində sağlamlıq turizmi daha geniş əhali üçün əlçatan olur. Nəhayət, bu cür yanaşmalar sənayenin uzunmüddətli və dayanıqlı inkişafına zəmin yaradır (Karimova, 2024).

Naxçıvan Muxtar Respublikasında sağlamlıq turizminin inkişafında mühüm rol oynayan obyektlərdən biri Duzdağ Fizioterapiya Mərkəzidir. Bu mərkəz dünyanın azsaylı speleoterapiya məkanlarından biri olmaqla, tənəffüs yolları xəstəliklərinin müalicəsi və profilaktikasında yüksək nəticələr verir. Onun beynəlxalq səviyyədə rəqabətqabiliyyətli turizm məhsuluna çevrilməsi üçün aşağıdakı istiqamətlər üzrə innovativ yanaşmalar əhəmiyyət kəsb edir:

1. İxtisaslaşmış müalicə paketlərinin hazırlanması. Duzdağ Mərkəzində bronxial astma, allergik rinit, xroniki bronxit kimi tənəffüs sistemi xəstəlikləri üzrə ixtisaslaşmış kompleks tibbi xidmətlər təklif olunmalıdır. Bu məqsədlə fərdiləşdirilmiş paketlər hazırlanaraq, ilkin diaqnostika, speleoterapiya seansları, fizioterapiya prosedurları, həkim nəzarəti və yekun qiymətləndirməni əhatə etməlidir.

2. Uzunmüddətli xəstəliklərin idarə olunması proqramları. Xroniki xəstəlikləri olan turistlər üçün yalnız qısamüddətli deyil, səfərdən sonra da davam edən distant monitorinq və məsləhət əsaslı idarəetmə proqramları hazırlanmalıdır. Telekonsultasiya, həyat tərzi tövsiyələri və onlayn tibbi dəstək xidmətləri bu modelə daxil edilə bilər. Bu yanaşma Duzdağı sağlamlıq yönümlü dəstək platformasına çevirə bilər.

3. Psixoloji sağlamlıq və stresin idarə olunması xidmətləri. Duz mağarasının sabit temperaturu, təmiz havası və sakit mühiti stresin azaldılması üçün əlverişli şərait yaradır. Bu imkanlardan istifadə edilməklə yoqa, nəfəs məşqləri, meditasiya və zehinlilik təlimlərini əhatə edən relaksasiya proqramları hazırlanmalıdır. Belə xidmətlər turizm təcrübəsinin emosional dəyərini artırır.

4. Qidalanma və sağlam həyat tərzi üzrə fərdi tövsiyələr. Turistlərə diyetoloq məsləhətləri ilə yanaşı, tənəffüs sağlamlığına uyğunlaşdırılmış qidalanma planları təklif edilməlidir. Bu, xüsusilə allergik xəstəliklərin idarə edilməsində effektiv ola bilər və ümumi immun sistemin güclənməsinə müsbət təsir göstərir.

5. Fiziki aktivlik və reabilitasiya proqramları. Duzdağ mərkəzində müalicəvi yürüşlər, nəfəs texnikaları və yüngül fiziki məşqlərə əsaslanan fərdi reabilitasiya proqramları tətbiq olunmalıdır. Bu sahədə fizioterapevt və idman təlimçilərinin iştirakı ilə xüsusi planlar hazırlanmalı, müasir texnologiyalardan (ağıllı izləmə cihazları və s.) istifadə edilməlidir.

Muxtar respublikanın kənd və qəsəbələrində turizmin inkişafı yerli əhali üçün sosial rifahın yüksəlməsi, yeni iş imkanlarının yaranması və xidmət infrastrukturunun genişlənməsi baxımından əhəmiyyətlidir (Naxçıvan Muxtar Respublikasında 2023–2027-ci illər üçün Turizmin İnkişafı üzrə Dövlət Proqramı). Bu məqsədlə kənd yerlərində qonaqlama və kənd həyatını təqdim edən tematik tur paketlər formalaşdırıla bilər. Bununla belə, yerli mədəniyyətin kommersiyalaşdırılması, həyat tərzinə müdaxilə və resursların ədalətsiz bölgüsü kimi risklərə qarşı tədbirlər görülməlidir. Turizm planlamasında yerli icmaların fəal iştirakı bu problemlərin qarşısını almağa imkan verir.

Naxçıvanın zəngin təbiətə malik olması – Zəngəzur Milli Parkı, Batabat yaylası, duz mağaraları, təbii mineral sular – regionu ekoloji baxımdan həssas turizm məkanına çevirir. Bu səbəbdən ekoturizm fəaliyyətləri planlaşdırılarkən ətraf mühitə təsirlər öncədən qiymətləndirilməli və minimal müdaxilə prinsipi əsas götürülməlidir (Bababəyli, 2025). Eyni zamanda, ekoturizmin təşviqi vasitəsilə təbiətin mühafizəsinə və yerli ekosistemlərin qorunmasına da töhfə vermək mümkündür.

Regiona səfər edən turistlər yüksək keyfiyyətli, təhlükəsiz və yaddaqalan təcrübə axtarışındadırlar. Onların bir hissəsi səyahət zamanı yaratdıqları ekoloji izə və sosial təsirlərə daha həssas yanaşır. Bu meyil Naxçıvanda ekoloji cəhətdən məsuliyyətli və təcrübə əsaslı turizm məhsullarının inkişafını stimullaşdırır.

Turizm sahəsində həm istehsalçılar, həm də istehlakçılar davamlı inkişafı təmin edir. Turizmin təsirlərinin əksəriyyəti özəl sektorun və turistlərin özləri tərəfindən görülən tədbirlərin nəticəsidir. Bununla belə, aydındır ki, turizmi daha dayanıqlı etmək üçün dövlət liderlik edir (Əsədov, 2020).

Dövlət özəl sektora, turistlərə və digər maraqlı tərəflərə davamlı inkişaf məsələlərinə cavab verməyə imkan verən və təşviq edən mühit təmin etməlidir. Buna ən yaxşı şəkildə davamlılığı ön plana çıxaran turizmin inkişafı, idarəetmə siyasətlərinin hazırlanması və həyata keçirilməsi ilə nail olmaq mümkündür. Davamlı inkişaf prinsipləri yerli səviyyədə siyasət və tədbirlərin müəyyən edilməsini və həyata keçirilməsini vurğulayır. Bu, milli siyasətin dəstəkləyici çərçivəsinə daxil edilməlidir. Bu təlimat həm milli, həm də yerli səviyyələrdə hökumətlər üçün nəzərdə tutulur (Əliyev, 2019).

Nəticə

Uzunmüddətli turizmin inkişafı və mövsümiliyin azaldılması üçün turizm məhsullarının şaxələndirilməsi, yəni sağlamlıq turizmi, mədəni və dini turizm, kənd turizmi və qış turizmi imkanlarının genişləndirilməsi zəruridir. Həmçinin ilboyu keçirilən festivallar, tədbirlər və tematik proqramlar hazırlanmalı, regional turizm "təqvimi" yaradılmalıdır. Mövsümi fəaliyyətlərdən asılı olmayan obyektlərin (konqres mərkəzləri, sağlamlıq mərkəzləri və s.) inkişafı təşviq edilməli, Naxçıvanın dörd fəsil turizm istiqaməti kimi tanıdılması üçün onlayn platformalarda kampaniyalar gücləndirilməlidir. Vergi güzəştləri, subsidiya proqramları və dövlət-özəl tərəfdaşlığı mexanizmləri mövsümiliyin azaldılmasına müsbət təsir göstərə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası. (2022). AR Prezidentinin Fərmanı.
2. Azərbaycan Respublikasında Turizmin İnkişafı Konsepsiyası – "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmişdir. (2021).
3. Bababəyli, N. (2025). Naxçıvan Muxtar Respublikasında balneoloji əhəmiyyətli suların səciyyəsi. Elmi Tədqiqat, Beynəlxalq Elmi Jurnal, Cild 5, Sayı 6, s.62-66. https://doi.org/10.36719/2789-6919/46/56-61
4. Bahar, O., & Kozak, M. (2015). *Turizm ekonomisi*. Detay Yayıncılık.
5. Əliyev, R., & Qasımov, T. (2021). Azərbaycanın regional turizm strategiyasında Naxçıvanın rolu. *Turizm və Sosial Elmlər Jurnalı*, 7(2), 45-58.
6. Əliyev, Z. (2019). *Turizmdə mövsümilik və onun azaldılması yolları*. ADNSU.
7. Əsədov, Ə. (2020). *Azərbaycan Respublikasında turizmin inkişafı strategiyası*. İqtisad Universiteti Nəşriyyatı.
8. Gürsoy, D. (2012). *Mevsimsellik sorunu ve turizmde alternatif stratejiler*. Akdeniz Üniversitesi Yayınları.
9. Karimova, F. (2024). Analysis of tourism activity in socio-economic development of the Republic of Azerbaijan. World of Conferences, Proceedings of the XVI International Scientific and Practical Conference 301-304. https://doi.org/10.5281/zenodo.14003554
10. Kozak, M., & Kozak, N. (2021). *Turizm pazarlaması*. Detay Yayıncılık.
11. Məmmədov, N., & Abbasov, A. (2018). *Turizm coğrafiyası və iqtisadiyyatı*. Elm və Təhsil.

12. Naxçıvan MR Dövlət Statistika Komitəsi. (2020-2024). *Turizm və xidmət sahələri üzrə illik statistik bülletenlər*.
13. Naxçıvan MR Nazirlər Kabineti. (2022). *Naxçıvan Muxtar Respublikasında 2023–2027-ci illər üçün turizmin inkişafı üzrə Dövlət Proqramı*.
14. Naxçıvan Turizm Departamenti. (n.d.). *Naxçıvanda turizm fəaliyyəti üzrə rüblük və illik hesabatlar*.
15. Timur, A. (2018). *Sürdürülebilir turizm planlaması*. Beta Yayınları.

Daxil oldu: 10.04.2025
Qəbul edildi: 19.07.2025

DOI: https://doi.org/10.36719/2789-6919/47/45-51

Бахар Гадирова
Бакинский Славянский Университет
докторант
https://orcid.org/0009-0008-6683-0505
bahar.gadirova@gmail.com

О переводах произведений Адама Мицкевича

(На основе переводов на Азербайджанский и русский языки)

Резюме

В статье кратко рассматривается роль художественного перевода в творчестве польского поэта Адама Мицкевича. В первой части исследования речь идет о времени появления и стилистических особенностях касид, заимствованных ориенталистом у восточных классиков. Также затрагиваются объективные причины творческого интереса Мицкевича к истории восточной культуры. Во второй части представленного исследовательского материала проводится сравнительный анализ некоторых переводов произведений А.Мицкевича на восточную тематику на азербайджанский и русский языки. В ходе анализа предпринимается попытка выяснить степень сохранения авторского стиля различными переводчиками. В процессе сравнительного изучения отдельных произведений особое внимание уделяется вопросу передачи характерной восточной лексики и художественно-изобразительных средств.

Ключевые слова: *перевод, поэзия, образ, классика, поэт*

Bahar Qədirova
Bakı Slavyan Universiteti
doktorant
https://orcid.org/0009-0008-6683-0505
bahar.gadirova@gmail.com

Adam Mitskeviçin əsərlərinin tərcümələri haqqında

(Azərbaycan və rus dilinə edilmiş tərcümə materialları əsasında)

Xülasə

Məqalədə polyak şairi Adam Mitskeviçin yaradıcılığında bədii tərcümənin rolu məsələsi qısa şəkildə araşdırılır. Araşdırma prosesinin birinci hissəsində orientalist şairin Şərq klassiklərindən iqtibas etdiyi qəsidələrin yaranma tarixi və üslub xüsusiyyətlərindən söhbət açılır. Burada həmçinin Mitskeviçin Şərqin mədəniyyət tarixinə olan yaradıcı marağının obyektiv səbəblərinə toxunulur. Mövcud tədqiqat materialının ikinci hissəsində A.Mitskeviçin Şərq mövzusunda yazdığı əsərlərin Azərbaycan və rus tərcümələrinin bir qismi müqayisəli şəkildə təhlil olunur. Təhlillər zamanı müəllif üslubunun ayrı-ayrı mütərcimlər tərəfindən saxlanılma səviyyələrinə aydınlıq gətirilməsinə cəhd olunur. Mövcud məqalədə ayrı-ayrı əsərlər üzərində aparılan müqayisəli tədqiq prosesi boyu xarakterik Şərq leksikası və bədii təsvir vasitələrinin yenidən verilməsi məsələsi diqqət mərkəzində saxlanılmışdır.

Açar sözlər: *tərcümə, poeziya, obraz, klassik, şair*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Bahar Gadirova
Baku Slavic University
PhD student
https://orcid.org/0009-0008-6683-0505
bahar.gadirova@gmail.com

On Translations of Adam Mickiewicz's Works
(Based on translations into Azerbaijani and Russian)

Abstract

The article briefly examines the role of artistic translation in the work of the Polish poet Adam Mickiewicz. The first part of the study discusses the time of appearance and stylistic features of the qasidas borrowed by the orientalist from the Eastern classics. It also touches upon the objective reasons for Mickiewicz's creative interest in the history of Eastern culture. The second part of the presented research material provides a comparative analysis of some translations of A. Mickiewicz's works on Eastern themes into the Azerbaijani and Russian languages. During the analysis, an attempt is made to determine the degree to which the author's style has been preserved by various translators. In the process of comparative study of individual works, special attention is paid to the issue of transferring characteristic oriental vocabulary and artistic and visual means.

Keywords: *translation, poetry, image, classic, poet*

Введение

Искусство перевода, занимающее незаменимое место в истории мировой культуры, всегда играло особую роль в формировании творческого облика каждого выдающегося мастера слова и в популяризации его художественного наследия. Это благородное искусство не обошло стороной и творчество Адама Мицкевича — одного из могущественных представителей европейского романтизма XIX века. Исключительная роль перевода в изучении многообразных творческих связей этого большого друга культур народов Ближнего Востока с данным регионом не вызывает сомнений.

Такую широкую и значимую тему условно можно описать с двух сторон. Первая — это то, как ориенталист-поэт приобщался к культурной истории этих народов именно через переводы, а также с какой любовью он заимствовал отдельные классические произведения восточной литературы, преобразуя их в творческой форме. Важно отметить, что в переводах или стилизациях Мицкевича, выполненных по мотивам восточной литературы, следует уделить особое внимание образу автора. В этих произведениях, как когда-то выразился Н.В.Гоголь о В.А.Жуковском, «личность переводчика-автора видна абсолютно ясно» (Гоголь, 1952, с. 377).

Разумеется, здесь необходимо указать на два объективных аспекта. Во-первых, в начале XIX века «синтез переводного материала с авторским творчеством считался вполне закономерным» (Mitskeviç, 2006, с. 235). Иначе говоря, по выражению Д.С.Лихачёва, свободное творческое отношение к оригинальному тексту «в те времена считалось своего рода модой» (Гоголь, 1952, с. 203).

С этой точки зрения особое внимание заслуживают объёмные касиды «Шанфари» и «Аль-Мутанабби», которые Адам Мицкевич перевёл на польский язык в вольной, творческой интерпретации с арабского. Касиду «Шанфари» впервые перевёл с арабского языка Сильвестр де Саси. На основе его текста, конкретных фактов и важных комментариев Осип Сенковский написал повесть «Смерть Шанфари». Именно благодаря всему этому А.Мицкевич с большой благодарностью к своему соотечественнику создал собственную великолепную касиду «Шанфари».

Исследование

Другим произведением, которое А.Мицкевич заимствовал из арабской литературы, является касида «Аль-Мутанабби». Впервые она была переведена Д.Лагранжем, и Мицкевич, переводя её на польский язык, исходил из фактора психологического родства между переводчиком и оригиналом. Ведь то, что сближало обоих арабских поэтов с польским автором-переводчиком, — это их бунтарская поэзия и схожие личные судьбы.

Во-вторых, всё это можно рассматривать как логический итог существующих литературных процессов. Известный писатель и переводчик В.А.Эберман, опираясь на целый ряд сходств в европейской и русской литературе, пишет: «Период расцвета переводов и подражательной литературы, основанных на персидской и арабской поэзии, приходится именно на 20–30-е годы XIX века» (Эберман, 1933, с. 57).

Следует отметить, что Мицкевич не сразу пришёл к творческому переводу. Когда-то в Веймаре молодой поэт получил благословение великого Гёте, после чего ещё крепче привязался к восточной тематике. Вполне логично, что с одной стороны он успешно перевёл восточную поэму Байрона «Гяур», а с другой — как востоковед, неустанно изучал многочисленные источники о мощных представителях арабской поэзии Средневековья, таких как Аль-Мутанабби, Шанфари, а также о зороастризме и тюркской культуре. Он стремился читать многое на местных языках, точнее — в оригинале.

Из писем поэта своим друзьям (включая А.Ходзько, О.И.Сенковского, И.Лелева, Ю.Ковалевского и других), а также из воспоминаний его современников становится ясно, что он проявлял живейший интерес к персидскому, арабскому и особенно турецкому языкам — и добился в этом направлении определённых успехов.

Говоря о роли перевода в изучении и популяризации литературного наследия Адама Мицкевича среди азербайджанских писателей, следует напомнить, что этот процесс начался ещё в первой четверти XIX века, а точнее — с 1824 года. Именно в этом году Мицкевич в Петербурге через своего соотечественника О.Сенкевича знакомится с известным востоковедом Мирza Топчибашевым. После этого знакомства Топчибашев переводит на персидский язык сонет польского поэта «Вид гор с равнин Гёзлева». Персидскую подстрочную версию оригинала на польском языке выполнил ученик Топчибашева — Александр Ходзько. Адам Мицкевич включил этот перевод в сборник «Сонеты» вместе с предисловием, написанным азербайджанским переводчиком.

Один из издателей произведений А.Мицкевича на русском языке в своих комментариях отмечает, что «романтическая поэзия Мицкевича (как, впрочем, и Гёте, Байрона и Т.Мура) значительно отличается от реального Востока в плане восприятия локального колорита и выбора образных выражений. Топчи-Баши, как представитель восточного литературного и педагогического вкуса, связанного с классической, арабской и суфийской поэзией, в переводе романтического стихотворения допустил характерную деформацию». Автор статьи, ссылаясь на В.В.Григорьева, пишет, что как представитель школы суфийской поэзии, он заменил в переводе дважды употреблённое имя Аллаха в оригинале другими эпитетами (Кондрашов, 1979, с. 303).

Перевод М.Топчибашева представлен в форме газели и состоит из 12 бейтов, что формально приближает его к форме сонета. Однако в количественном отношении перевод значительно превышает оригинал. Если у Мицкевича стихотворение состоит из 14 строк и 104 слов, то у Топчибашева — из 34 строк и 249 слов.

Следует отметить, что этот перевод, ставший в своё время предметом активных обсуждений в литературной среде, по сути своей представлял собой сложнейшую задачу — попытку объединить две совершенно разные поэтические традиции. Несмотря на некоторые объективные несоответствия, большинство специалистов расценили этот смелый шаг азербайджанского поэта как достойное восхищения решение.

Особо примечательно то, что сам Адам Мицкевич высоко оценил как перевод, так и предисловие переводчика, и с большим волнением ожидал их скорейшего опубликования. В

1827 году упомянутый сонет был переведён Александром Ходзько с персидского на русский язык и опубликован в журнале «Московский телеграф».

Напомним, что в предисловии Мирза Топчибашев характеризовал Адама Мицкевича как талантливого поэта и человека с разносторонним интеллектуальным уровнем. Именно эта высокая оценка вдохновила Мицкевича на то, чтобы проявить искренний интерес к повторному переводу и публикации персидской версии и предисловия на польском языке.

В письме от 14 апреля 1827 года, адресованном А.Э.Одынцу, Мицкевич не скрывает своей радости от этого перевода и предисловия: «Вам дошёл из Петербурга экземпляр персидского перевода этого сонета? Любопытное предисловие Джафара, переведённое на польский, я пришлю вам позже. Этот перевод должен был войти в книгу, но по вине петербургских литографов и моих агентов он был готов слишком поздно — а теперь уже и вовсе слишком поздно» (Садыхов, 1975, с. 38).

Творческий интерес к художественному наследию романтического поэта стал своего рода традицией среди азербайджанских литераторов. Уже в 1826 году вышедший в свет сборник «Сонеты» имел читателей и в Азербайджане. Об этом сообщалось в одном из номеров «Литературной газеты», основанной Пушкиным, за 1830 год. Известный литературовед М.Садыхов пишет, что, по словам современников Мицкевича, А.Бакиханов выучил польский язык, чтобы читать его произведения в оригинале.

В последующие периоды, разумеется, имя и творчество Мицкевича стали более или менее известны азербайджанским просветителям и деятелям литературы. В азербайджанской печати XX века его имя периодически упоминалось. В газете, издававшейся Узеиром Гаджибековым до революции, была опубликована обширная статья о Мицкевиче. В наше время были изданы отдельные произведения поэта, а также многочисленные статьи, посвящённые его жизни и творчеству (Садыхов, 1975, с. 9).

Художественный перевод всегда отличался своей внутренней динамикой развития. Это наглядно подтверждают переводы произведений великого польского поэта последних десятилетий на азербайджанский и русский языки. Как известно, в отличие от других жанров, художественные тексты характеризуются экспрессивностью, эмоциональностью и образностью, обусловленной использованием соответствующих выразительных средств. Эти средства служат передаче реальности на художественно-эстетическом уровне.

А.Мицкевич в своей лирике виртуозно использовал такие художественные приёмы, а в произведениях на восточную тематику отдавал предпочтение образным выражениям, характерным для классической восточной поэзии. Всё это требует от переводчика соответствующих адекватных решений в процессе перевода.

Как известно, образность в художественных текстах может реализовываться через различные средства. Сюда относятся разнообразные метафорические выражения, сравнения, тропы, эпитеты, а также образные фразеологизмы и авторские афоризмы.

Dziś sępy czarnym skrzydłem oblatują groby,
Jak w mieście, które całkiem wybije zaraza,
Wiecznie z baszt powiewają chorągwie żałoby.
Ruiny zamku w bałakławie (Mickiewicz, n.d.)

Или:

O minarecie świata! o gór padyszachu!
Ty, nad skały poziomu uciekłszy w obłoki,
Sonety krymskie “Czatyrdah” (Mickiewicz, n.d.)

Если мы внимательно посмотрим на перевод, то увидим, что, несмотря на живость и пафос сравнения, священность минарета, присутствующая в оригинале, передана не в полной мере.

Ey Çadırdağ, səyyah kimi dolanaraq bu dünyanı
Yenə gəlib baş əyirəm sənin qadir hüzurunda.
Перевод С.Рустамханлы (Mitskeviç, 2006, c. 19)

Однако русский переводчик умело передал, что минарет является символом святости для исламского мира.

Целую трепетно. Ислама сын смиренный,
Подошвы скал твоих, заоблачных громад.
Перевод Вильгельма Левика (Дом Польски, n.d.)

Эти строки в переводе другого русского переводчика, А.П.Доброхотова, также выглядят не столь близко к оригиналу.

О мачта крымских гор! О минарет Аллы!
До туч вознесся ты в лазурные пустыни.
Перевод Ивана Бунина (Дом Польски, n.d.)

Гениальный мастер слова тюркского мира Чингиз Айтматов говорил: подлинный перевод — это «разговор на языке искусства на другом языке. Этот язык — язык сердца». Как говорил Маршак, перевод — «дитя любви» (Айтматов, 1987, с. 173). Без любви переводчика, без трепета его сердца невозможно заново воссоздать поэтический дух оригинала на другом языке. Только искренняя любовь позволяет сохранить неповторимый национальный колорит оригинала.

Już góra z piersi mgliste otrząsa chylaty,
Rannym szumi namazem niwa złotokłosa,
Kłania się las i sypie z majowego włosa,
Jak z różańca kalifów, rubin i granaty.
Ałuszta w dzień (Mickiewicz, 1899)

Сравнение:

Sübh namazı qılmağa dağ da tələsir yaman,
Günəş doğana kimi çadradan çıxır başı.
Güləndə yırğalanan meşənin cığasından
Xan təsbehi dağılır, yağır inci yağışı.
Перевод С.Рустамханлы (Mitskeviç, 2006, c. 17)

Переводчик должен быть хорошо знаком с культурной, политической и социальной средой, в которой разворачиваются описываемые в произведении события. Нельзя упускать из виду наличие национальных реалий, отражающих конкретные исторические этапы, а также быт народа, его обычаи, традиции и религиозные верования. Иными словами, как составная часть фоновых знаний, национальные реалии — элементы, характерные для быта и традиций определённого народа, включая одежду, обряды, титулы, сакральные понятия — выступают носителями колорита.

Jak łódź wesoła, gdy uciekłszy z ziemi
Znowu po modrym zwija się krysztale,
Farys (Mickiewicz, 1949, c. 248)

Уместно было бы привести здесь в качестве примера совершенный перевод этого прекрасного сравнения, присутствующего в оригинале.

Durna boğazıyla cumub,
Sulara
Перевод С.Рустамханлы (Mitskeviç, 2006, c. 57)

Или восторженные слова Фариси, сравнившего песчаную пустыню с морем.

Już płynie w suchym morzu koń mój i rozcina
Sypkie bałwany piersiami delfina.
“Farys” (Mickiewicz, 1949, c. 248)

Сравнение:

Bu quru dənizdə üzən kəhərim
Delfin sinəsiylə yarır çölləri.
Перевод С.Рустамханлы (Mitskeviç, 2006, с. 58)

Заключение

Н наряду с приведёнными выше удачными переводческими соответствиями нельзя не отметить и некоторые недостатки. Нельзя упускать из виду тот факт, что каждая культура обладает своим специфическим кодом. По справедливому мнению ряда известных теоретиков перевода, человек, хорошо владеющий лексикой и грамматикой (оригинального) языка, может передать содержание художественного текста. Однако далеко не каждый переводчик способен заново воссоздать его дух на другом языке.

Среди образных выражений наибольшие трудности при переводе, как известно, вызывают фразеологизмы. Поскольку все фразеологические единицы и устойчивые выражения обладают специфической, национальной сущностью, они редко находят прямые эквиваленты в других языках как с точки зрения значения, так и с лексико-грамматической структуры. В таких случаях, то есть при переводе с языков, обладающих различной коммуникативной структурой, переводчик вынужден прибегать к конверсивным трансформациям (Садыхов, 1975, с. 142).

Тем не менее, переводчик всегда оказывается в ситуации культурного «столкновения» двух миров, к которым принадлежат оба текста. Поскольку образные выражения отражают национальную специфику, они в большинстве случаев не поддаются стопроцентному переводу.

Иными словами, переводчик произведений такого мастера, как Адам Мицкевич — художника с ярко выраженными ориенталистскими творческими принципами — должен в процессе перевода творчески использовать все возможности второго языка, стремясь по максимуму сохранить оригинальный стиль.

Ещё раз следует подчеркнуть, что для избежания вышеуказанных переводческих недостатков в будущем необходимо обратить внимание на важность новых, более качественных переводов.

Литература

1. Айтматов, Ч. (1987). *Перевод — дитя любви*. В сборнике: *Перевод — средство взаимного сближения народов* (с. xx–xx). Прогресс.
2. Гоголь, Н.В. (1952). *Полное собрание сочинений* (Т. 8). Издательство АН СССР.
3. Дом Польски. (n.d.). *Adam Mickiewicz i Orient*. https://dompolski-journal.ru/articles/article/240/
4. Кондрашов, Н.А. (1979). *История лингвистических учений*. Просвещение.
5. Лихачев, Д.С. (1971). *Поэтика древнерусской литературы*. Художественная литература.
6. Мицкевич, А. (1976). *Сонеты*. Наука.
7. Mitskeviç, A. (1998). *Krım sonetləri. Pan Tadeuş*. Mütərcim.
8. Mitskeviç, A. (2006). *Seçilmiş əsərləri*. Şərq-Qərb.
9. Mickiewicz, A. (1949). *Dzieła* (T. I–II).
10. Mickiewicz, A. (n.d.). *Czatyrdah*. Wolne Lektury. https://wolnelektury.pl/katalog/lektura/sonety-krymskie-czatyrdah.html
11. Mickiewicz, A. (n.d.). *Wiersz 45*. Uniwersytet Gdański. https://literat.ug.edu.pl/amwiersz/0045.htm
12. Mickiewicz, A. (1899). *Ałuszta w dzień*. Wikisource. https://pl.wikisource.org/wiki/A%C5%82uszta_w_dzie%C5%84_(Mickiewicz,_1899)
13. Нелюбин, Л.Л., & Хухуни, Г.Т. (2006). *Наука о переводе*. Флинта.

14. Садыхов, М.З. (1975). *Очерки русско-азербайджанско-польских литературных связей XIX века*. Азербайджанское государственное издательство.
15. Sadıxov, M.Z. (1998). Böyük inqilabçı şair. In A.Mitskeviç, *Krım sonetləri* (s. xx–xx). Mütərcim.
16. Швейцер, А.Д. (1988). *Теория перевода: статус, проблемы, аспекты*. Наука.
17. Эберман, В.А. (1933). *Арабы и персы в русской поэзии*. Наука.

Поступило: 01.04.2025
Принято: 12.07.2025

DOI: https://doi.org/10.36719/2789-6919/47/52-55

Lamiə Heydərova
Sumqayıt Dövlət Universiteti
dissertant
https://orcid.org/0009-0008-0793-921X
lamia.heydarova@gmail.com

Azərbaycan paremioloji vahidlərində "Xeyir" konseptinin ifadəsi

Xülasə

Azərbaycan xalqının mənəvi-mədəni irsində "xeyir" anlayışı dərin tarixi və fəlsəfi köklərə malik olub, həm dini, həm də məişət təfəkküründə mühüm yer tutur. Bu anlayış paremioloji vahidlər vasitəsilə xalqın həyat prinsiplərini və dəyərlər sistemini əks etdirir. Paremiyalar "xeyir" konseptinin müxtəlif semantik çalarlarda necə ifadə olunduğunu və xalq düşüncəsindəki yerini açıq şəkildə göstərir. Müasir dövrdə bu konseptin tədqiqi milli kimliyin qorunması baxımından aktuallıq kəsb edir. Məqalənin məqsədi, "xeyir" konseptinin Azərbaycan dilindəki paremioloji vahidlər vasitəsilə semantik və linqvokulturoloji xüsusiyyətlərini araşdırmaqdır.

Açar sözlər: *xeyir konsepti, paremioloji vahidlər, linqvokulturoloji təhlil, milli-mənəvi dəyərlər, konseptual təhlil*

Lamia Heydarova
Sumgait State University
Dissertation student
https://orcid.org/0009-0008-0793-921X
lamia.heydarova@gmail.com

The Concept of "Goodness" in Azerbaijani Paremiological Units

Abstract

The concept of *"goodness"* in the moral and cultural heritage of the Azerbaijani people has deep historical and philosophical roots and holds a significant place both in religious beliefs and everyday folk mentality. This notion is reflected through paremiological units such as proverbs and sayings, which embody the nation's fundamental life principles and value system. These expressions clearly demonstrate how the concept of *"goodness"* is perceived and articulated through various semantic nuances in the collective mindset. In the modern era, the study of this concept is highly relevant for the preservation of national identity. The aim of this article is to explore the semantic and linguocultural characteristics of the concept of *"goodness"* as expressed through paremiological units in the Azerbaijani language.

Keywords: *concept of goodness, paremiological units, linguocultural analysis, national and spiritual values, conceptual analysis*

Giriş

Son onilliklər ərzində konsept anlayışı müasir dilçilikdə və xüsusilə də linqvistik və linqvokulturoloji tədqiqatlarda mühüm terminlərdən birinə çevrilmişdir. Konseptin elmi diskursda müxtəlif cəhətlərdən şərh olunması onun çoxplanlı və kompleks xarakter daşıması ilə izah olunur. Belə ki, konsept termini yalnız dilçilik deyil, həm də fəlsəfə, psixologiya, mədəniyyətşünaslıq, koqnitiv elmlər kimi bir sıra sahələrdə də fəal şəkildə işlədilir və bu sahələrdə fərqli mənalandırmalara məruz qalır.

Xüsusilə linqvokulturoloji yanaşma çərçivəsində konseptin başa düşülməsi onun mədəniyyətlə qarşılıqlı əlaqəsini ön plana çəkir. Bu baxımdan konsept sadəcə olaraq dil vahidi və ya məna

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

strukturu kimi deyil, həm də mədəni yaddaşın və milli-mədəni təfəkkürün təzahürü kimi nəzərdən keçirilir.

Tədqiqat

"Konsept" və "konsepsiya" termin-anlayışları rus dilçiliyində 1990-cı illərin əvvəllərindən etibarən fəal şəkildə işlədilməyə başlanmış və elmi-metodoloji diskursda geniş yer almışdır. Bu terminlər ilkin mərhələdə proterminoloji status daşıyaraq, dilin yalnız semantik deyil, eyni zamanda mədəni-tarixi və assosiativ-təxəyyül aspektlərini də əhatə edən vahidlər kimi təqdim olunmuşdur.

Rus humanitar elminin görkəmli nümayəndələrindən biri olan D.S.Lixaçov konsept anlayışını "mədəniyyətin ən ümumi və eyni zamanda ən zərif vahidi" kimi xarakterizə edərək, onu xalqın tarixi təcrübəsini, mənəvi-mədəni dəyərlərini və kollektiv yaddaşını ehtiva edən struktur kimi təqdim edir. Lixaçovun fikrincə, konsept sadəcə məna vahidi deyil, eyni zamanda emosional, estetik və etik yüklü mədəni kod funksiyasını da daşıyır (Lixaçov, 1993, s.12-13).

Bu anlayışın elmi diskursda öz yerini alması və sistemli tədqiqi prosesində S.A.Askoldova-Alekseyevanın da rolu əvəzsizdir. O, "konsept"i bir növ "kollektiv şüurda formalaşmış məzmun vahidi" kimi izah edərək, onun həm individual, həm də milli səviyyədə dərk olunan semantik və semiotik quruluş olduğunu göstərmişdir (Askoldova, 1997, s.22). Onun tədqiqatlarında konseptlər dilin deyil, daha çox düşüncənin və mədəniyyətin struktur elementləri kimi analiz olunmuşdur.

1990-cı illərin ortalarından başlayaraq, rus dilçiliyində "konsept" mədəniyyət və dil arasında vasitəçi rolunu oynayan vahid kimi qəbul edilmişdir. Konseptlər vasitəsilə müəyyən bir etnosun dünyagörüşü, dəyərlər sistemi və sosial-mədəni təcrübəsi analiz olunur. Belə yanaşma linqvokulturoloji istiqamətin əsaslarını təşkil edir və "dil vasitəsilə mədəniyyətin öyrənilməsi" prinsipinə əsaslanır (Krasnıx, 2002, s.12; Karaulov, 1999, s. 35).

Tanınmış rus alimi V.A.Kanke konsepti belə xarakterizə edir: "Konsept – bu, bizim şüurumuzda müəyyən bir anlayışa bərkimiş, uzun müddət ərzində formalaşmış və tanış məzmunu özündə ehtiva edən bir təsəvvürdür. Bu təsəvvür mədəniyyətin müəyyən bir situasiyasının təsviri kimi çıxış edir" (Kanke, 2000, s.20).

Bu yanaşma linqvokulturoloji araşdırmaların əsas prinsiplərindən biri olan "dil – mədəniyyət – şəxsiyyət" triadası ilə də uzlaşır. Hər bir konsept bu triadanın elementləri ilə qarşılıqlı əlaqədə olmaqla, insanın dünyagörüşünü və dəyərlər sistemini formalaşdırır. Bu səbəbdən də konseptlərin tədqiqi yalnız dilin deyil, bütövlükdə mədəniyyətin və cəmiyyətin dərin qatlarının öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir (Borkaçov, 2001, s.64).

Azərbaycan dilçilik elmi çərçivəsində "konsept" anlayışı əsasən koqnitiv və linqvokulturoloji yanaşmalar fonunda şərh olunur. Bu anlayış Azərbaycan milli təfəkküründə mövcud olan mənəvi-mədəni dəyərləri, dünyagörüşünü və assosiativ düşüncə tərzini təhlil etməyə imkan verən əsas kateqoriyalardan biri kimi çıxış edir. N.Məmmədli bu anlayışları "mədəniyyətin konseptual xəritəsi" baxımından təhlil edərək yazır ki, konseptlər dilin semantik strukturunda obyektiv reallığın deyil, milli-mədəni dəyərlərin təcəssüm formasıdır: "Konseptlər dilin yalnız nominativ funksiyasını deyil, onun düşüncə və dərk mexanizmlərini də ehtiva edir. Onlar mədəniyyətin informasiya kodları kimi çıxış edərək xalqın kollektiv yaddaşını formalaşdırır" (Məmmədli, 2010, s.32). A.Kazımzadə isə qeyd edir ki, "konsept" anlayışı yalnız semantik deyil, həm də assosiativ-estetik struktura malik olan və bir xalqın dilindəki bədii düşüncə tərzini ifadə edən vahiddir: "Konsept – bədii təfəkkürün dilə köçürülmüş, eyni zamanda yaddaşda və mədəni təcrübədə qorunan intellektual məzmun vahididir" (Kazımzadə, 2010, s.32). F.Veysəlli də konseptual yanaşmaların Azərbaycan dilçiliyində əhəmiyyətini vurğulayaraq bildirir ki, "konsept" anlayışı milli-mədəni kodların interpretasiyası üçün açar funksiyası daşıyır: "Konsept – konkret dil vahidlərinin arxasında gizlənmiş mədəniyyət qatını üzə çıxaran bir informasiya platformasıdır" (Veysəlli, 2008, s.87). Konseptual təhlilin aparılması üçün xüsusilə məhsuldar və maraqlı dil materiallarından biri paremioloji vahidlərdir. Paremioloji vahidlər xalqın şifahi ənənəsinə əsaslanan ədəbi-mədəni irsin mühüm tərkib hissəsi olmaqla, cəmiyyətin kollektiv yaddaşında formalaşmış, ümumbəşəri dəyərlərin və həyat təcrübəsinin simvolik ifadəsini ehtiva edən mətn nümunəsidir.

Paremioloji vahidlər vasitəsilə təcəssüm olunan konseptlər, xüsusilə mənəvi-əxlaqi xarakterli anlayışlar, xalqın dünya haqqında təsəvvürlərini və onun sosial-mədəni dəyərlər sistemini əks

etdirir. Azərbaycan xalqının milli şüurunda mərkəzi yer tutan konseptlər sırasında "həqiqət", "yalan", "xeyir", "şər", "Tanrı", "tale" və digər ali mənəvi kateqoriyalar xüsusi önəm daşıyır.

"Xeyir" leksemi həm gündəlik düşüncə tərzində, həm də fəlsəfi mənada Azərbaycan xalqının ümumi dünya görüşündə olduqca əhəmiyyətli yer tutur. Bu anlayış xalqın düşüncə sistemində elə bir önəm daşıyır ki, onun ifadəsi olan "xeyir" sözü əsas anlayışlardan biri kimi çıxış edir. Bu baxımdan, "xeyir" məfhumunun rolu yalnız "həyat" və "ölüm" kimi əsas leksik vahidlərlə müqayisə edilə biləcək səviyyədədir. Lakin diqqət çəkməli məqam odur ki, xalq təfəkküründə "xeyir" anlayışı mütləq mövqedə dayanmır və digər vacib anlayışlar kimi öz əksi ilə sıx bağlıdır. Beləliklə, "xeyir" anlayışı binar oppozisiya sistemində "şər" konsepti ilə birlikdə dərk olunur. Azərbaycan dilində bu qarşıdurma və onların ziddiyyətli, lakin qarşılıqlı əlaqəli təbiəti qədim zamanlardan etibarən ifadə olunmuşdur. Məsələn, *"Xeyir ilə şər qardaşdır", "Şər deməsən, xeyir gəlməz", "Gündüzün xeyrindən gecənin şəri yaxşıdır", "Əldən tutmaq Əlidən qalıb"* (ADİL, 2006, s.128) və s. atalar sözü xalq arasında geniş yayılmış və tez-tez istifadə olunan paremiyalardan biridir.

Azərbaycan xalqının dərin mənəvi təfəkküründü əks etdirən paremioloji vahidlər "xeyir" konseptinin mədəni və etik dəyərlər sistemindəki yerini aydın şəkildə ortaya qoyur. Bu dil vahidləri, "xeyir" anlayışını həm fərdi, həm də sosial davranış meyarı kimi təqdim etməklə yanaşı, insanların gündəlik həyat təcrübəsi və müdrikliyini əbədiləşdirir. "Xeyir" konsepti paremiologiyada çoxsaylı metaforalar, sinonimlər və kontekstual ifadələrlə zənginləşərək xalqın dəyərlər sistemində vacib yer tutur.

Paremioloji vahidlərdə "xeyir" daha çox mərhəmət, ədalət, dürüstlük, zəhmətsevərlik və qarşılıqlı yardım kimi atributlarla birgə işlədilir. Məsələn, *"Yaxşılıq elə (xeyir iş gör) at dəryaya, balıq bilməsə də xaliq bilər"* atalar sözü xeyirli əməlin sonsuzluğunu və bərəkətini ifadə edir; edilən yaxşılıq unudulmaz və geri dönməz hesab olunur. Bu, həm də xeyirxahlığın özünə və cəmiyyətə faydasının olduğuna dair xalqın inancını əks etdirir. *"Xeyir bulağı qurumaz", "Xeyir istə, şərdən uzaq ol*" kimi atalar sözləri isə "xeyir" ilə "şər" arasındakı dialektik münasibəti göstərir. Bu nümunələrdə xeyir həm davamlılıq, həm də tərbiyə və əxlaqın qorunması mənasında təqdim olunur. Onlar xalq düşüncəsində xeyirin şəri məğlub edən və cəmiyyət üçün müsbət qüvvə olduğunu simvolizə edir. *Yaxşılıq elə, unut; yaxşılıq edən yaxşılıq tapar; yaxşı işin yaxşılıqla qarşılığı olar; xeyir iş gizli olmaz; yaxşılıqdan qorxma, pislikdən qaç; pislik öz axırını tapar, yaxşılığın izi qalar; yaxşı iş görməkdə tələs, pislik öz-özünə gələcək* (Həmidov, 2009, s.156).

Azərbaycan paremiologiyasında "xeyir-bərəkət" anlayışı əhəmiyyətli bir yer tutur. Xüsusilə "bərəkət" termini Azərbaycan mədəniyyətində dərin mənaya malikdir və Allahın adı ilə əlaqələndirilir. Bu anlayış həm də Allah tərəfindən insanlara verilə bilən bir nemət kimi qəbul olunur. Xalq arasında geniş yayılmış *"Səndən hərəkət, məndən bərəkət"* deyimi insanın zəhmətinin önəmini tamamilə aradan qaldırmasa da, Allahın bərəkəti olmadan zəhmətin səmərəsiz qalacağını vurğulayır. İkidilli lüğətlərdə "bərəkət" sözü əsasən "bolluq, məhsuldarlıq" mənasında təqdim edilir və bu, sözün əsas nominativ mənası kimi başa düşülməlidir. Bundan başqa, lüğətdə "bərəkət" sözünün üç əlavə mənası da qeyd edilir: ikinci mənası "səmərə, fayda, xeyir, artım"; üçüncüsü çıxışlıq halında işlənərək "bərəkətindən" — "üzündən, nəticəsində, sayəsində" mənalarını daşıyır; dördüncü mənası isə nida şəklində istifadə olunmaqla müəyyən bir mövzunun üstünlüyünü vurğulayır, məsələn, *"Qış fəsli nə qədər gözəl olsa da, yenə bahar fəslinə bərəkət!"* (Məmmədquluzadə, 2000, s. 44) ifadəsində olduğu kimi. Azərbaycan linqvomədəniyyətində "xeyir" konseptinin əsas assosiativ körpüsü kimi "toy" anlayışı mühüm rol oynayır. Bu əlaqə "xeyir" və "iş" leksemlərinin birgə istifadəsi nəticəsində əmələ gələn "xeyir iş" sabit ifadəsi ilə özünü göstərir. "İş" leksemi mücərrəd və ümumi mənaya malik olmasına baxmayaraq, "xeyir iş" birləşməsi konkret mənaya malikdir və adətən "nikah", "toy" və "nişan" mərasimləri ilə əlaqələndirilir. M.H.Məhərrəmovanın "Müasir Azərbaycan dilində "Xeyir" və "Şər" semantik sahələri" adlı dissertasiya işinin avtoreferatında qeyd olunur ki, müasir Azərbaycan dilində "toy" termini əsasən nikahla bağlı keçirilən şənlik mənasında işlədilir. Lakin qədim türk dillərində bu söz daha geniş semantik sahəyə malik olmuş və ümumi bayram, şadyanalıq, xalq şənlikləri anlamını ifadə etmişdir. Bu qədim semantik yükün izləri yalnız Azərbaycan dilində deyil, digər türk dillərində və hətta rus dilində də özünü göstərir. Məsələn, rus dilində işlənən "сабантуй" leksik vahidi tatar və başqırd xalqlarında yaz mövsümündə

biçin işlərinin tamamlanması münasibətilə keçirilən xalq bayramını ifadə edir. Bununla yanaşı, bu söz gündəlik ünsiyyətdə "şənlik", "qonaqlıq" və "içki-süfrə məclisi" mənalarında da geniş istifadə olunur. Rus dilinin akademik lüğətlərində bu terminə dair konkret nümunələr göstərilməsə də, bədii ədəbiyyatda onun işlənmə halları qeydə alınmışdır. Bu isə onu deməyə əsas verir ki, "сабантуй" sözü rus dilində geniş yayılmış vahid olmasa da, əsasən tatar dilindən keçərək mənimsənilmişdir (Məhərrəmova, 2021, s. 15).

Nəticə etibarilə, "xeyir" və "toy" leksemləri arasında yaranan bu semantik əlaqə Azərbaycan dilində mədəniyyətin dil vahidlərinə təsirinin bariz nümunəsidir və konseptual kateqoriyaların formalaşmasında mühüm əhəmiyyət kəsb edir. *"Toy-bayram bizim küçədə də olar"* atalar sözü (Həmidov, 2009, s. 326) "toy" sözünün denotativ məna imkanlarını ortaya qoyur. Burada "bayram" lekseminin iştirak etməsi bir tərəfdən ifadənin mənasının aydınlaşmasına yardım edir, digər tərəfdən isə "toy" sözünü rəmzi məna daşıyan elementə çevirir; yəni söhbət konkret toydan yox, ümumi sevinc və şənlikdən gedir. Aparılan təhlil göstərir ki, "toy" leksemi Azərbaycan dilində həm struktur, həm də semantik baxımdan geniş və dərin inkişaf mərhələsinə malikdir. Bu inkişafın ekstralinqvistik səbəbləri isə Azərbaycan xalqının kütləvi şüurunda toy mərasiminin böyük sevinc və birgəlik simvolu kimi qəbul olunması ilə izah edilir.

Nəticə

Dərman Müalicəsinin İdarə Edilməsi (Medication Therapy Management – MTM) xidmətində də məlumat analitikası mühüm rol oynayır. MTM xidmətləri pasiyentlərin terapevtik nəticələrinin optimallaşdırılmasına yönəlmiş əczaçılar tərəfindən təqdim olunan kompleks yanaşmadır. Bu xidmət çərçivəsində pasiyentin qəbul etdiyi bütün dərmanların nəzərdən keçirilməsi və qiymətləndirilməsi həyata keçirilir. Məqsəd potensial dərmanların qarşılıqlı təsirlərini, təkrarlanan təyinatları və müalicənin effektivliyinə və ya pasiyentin təhlükəsizliyinə təsir göstərə biləcək digər problemləri aşkarlamaqdır. Məlumatları təhlil edərək, dərman qarşılıqlı təsirləri və ya təyinatlara əməl olunmaması kimi potensial riskləri əks etdirən nümunələri və tendensiyaları müəyyən edə bilirlər (Altman, 1991).

Genomika sahələrində əldə olunan nailiyyətlər nəticəsində statistik modelləşdirmə, müalicələrin fərdi genetik xüsusiyyətlərə uyğunlaşdırılmasında geniş tətbiq olunur və bu da terapevtik nəticələrin daha da yaxşılaşmasına səbəb olur. Genom miqyaslı assosiasiya tədqiqatları və maşın öyrənməsi alqoritmləri getdikcə daha çox dəqiqlik tələb edən onkologiya sahəsində və nadir xəstəliklərin idarə olunmasında istifadə olunur.

Fərdi pasiyent baxımının yaxşılaşdırılması ilə yanaşı, məlumat analitikası dərman istifadəsi prosesinin ümumi keyfiyyətinin və təhlükəsizliyinin artırılması məqsədilə daha geniş miqyasda getdikcə daha çox tətbiq olunur. Məsələn, dərman səhvlərinin qarşısının alınması məlumat analitikasının dərin təsir göstərdiyi əsas sahələrdən biridir. Əczaçılar məlumat əsaslı sistemlərdən istifadə etməklə dərman səhvlərini izləyə və təhlil edə, dərhal nəzərə çarpmayan müəyyən tendensiyaları müəyyən edə bilirlər. Bu səhvlər dozanın yanlış təyin olunması, vaxtında verilməməsi, dərmanlararası qarşılıqlı təsirlər və ya inzibati səhvlərlə bağlı ola bilər. Bu məlumatların toplanması və təhlili vasitəsilə əczaçılar bu səhvlərin əsas səbəbləri haqqında məlumatlar əldə edir və onların qarşısını almaq üçün müvafiq strategiyalar tətbiq edə bilirlər (Perel, 2007).

Əczaçılıq praktikasında məlumat analitikasının inteqrasiyası həmçinin dərman təyinatlarına əməl olunmasının monitorinqini də xeyli dərəcədə təkmilləşdirmişdir. Dərmanların düzgün qəbulu uğurlu terapevtik nəticələrin əsas şərtlərindən biri olsa da, bu məsələ hələ də səhiyyədə ciddi problem olaraq qalır. Təyin olunmuş dərmanlara əməl olunmaması mənfi sağlamlıq nəticələrinə, səhiyyə xərclərinin artmasına və lazımsız hospitalizasiyalara səbəb olur. Məlumat analitikası vasitəsilə əczaçılar reseptin yenilənməsi məlumatlarını, pasiyent demoqrafiyasını və dərman istifadəsi tarixçəsini təhlil edərək riayət etmə nümunələrini izləyə bilirlər. Alqoritmlərin köməyi ilə onlar dərmanlara əməl etməmək riski yüksək olan pasiyentləri müəyyənləşdirə və proaktiv şəkildə müdaxilə edə bilirlər. Bəzi hallarda isə məlumat analitikası dərmanlara əməl etməməyin əsas səbəblərini – məsələn, yan təsirlər, dərmanların qiyməti ilə bağlı narahatlıqlar və ya dərmanın məqsədini tam anlamamaq kimi amilləri – aşkar etməyə kömək edir (Piantadosi, 2017).

Adaptiv klinik sınaq dizaynları, Bayes statistikası və elektron səhiyyə qeydlərindən məlumatların inteqrasiyası artıq əsas praktikaya çevrilməkdədir. 2024-cü ildə aparılmış əsas klinik tədqiqatların 68%-dən çoxunda təkmilləşdirilmiş statistik modellərdən istifadə olunmuşdur.

Aşağıdakı qrafik və cədvəl son on il ərzində statistik üsullardan istifadə edilən tibbi tədqiqatların artan sayını göstərir:

Qrafik. 2015–2024-cü illər ərzində tibbi tədqiqatlarda statistik üsullardan istifadə artımı



Cədvəl 1. Səhiyyə sahəsində geniş istifadə olunan statistik üsullar və onların tətbiq sahələri

Statistik üsul	Tətbiq sahəsi
***t*-test**	İki qrup arasında ortalamaların müqayisəsi (məsələn, dərman və plasebo təsiri)
ANOVA (Dispersiya təhlili)	Üç və ya daha çox qrup arasında fərqlərin analiz edilməsi
Logistik regresyon	Xəstəlik risk faktorlarının və ehtimalların proqnozlaşdırılması
Kaplan–Meier analizi	Sağ qalma ehtimalının zamanla qiymətləndirilməsi
Cox proporsional risk modeli	Sağ qalma ilə əlaqəli faktorların təsirinin öyrənilməsi
Bayes statistikası	Mövcud məlumatlar əsasında ehtimalların yenilənməsi və proqnozların verilməsi
Disproporsionallıq analizi	Farmakonəzarətdə mənfi dərman reaksiyalarının aşkar olunması
Regresiya analizi	Müxtəlif dəyişənlər arasındakı əlaqələrin modelləşdirilməsi
GWAS (Genom miqyaslı tədqiqatlar)	Genetik markerlərlə xəstəliklər arasında əlaqələrin araşdırılması

Statistika farmakoloji tədqiqatlarda mühüm alət olaraq çıxış edir və eksperimental məlumatların mərkəzi meyillilik (orta və ya median) və yayılma göstəriciləri (standart sapma, ortalamanın standart xətası, etibarlılıq intervalı və ya diapazon) əsasında ümumiləşdirilməsi üçün (təsviri statistika) istifadə olunur. Lakin bundan da vacibi, statistika bizə fərziyyələrin sınaqdan keçirilməsi – yəni hipotezlərin yoxlanılması – imkanını verir ki, bu da elmi nəticələrin əsaslandırılması və qərarların obyektiv şəkildə qəbul edilməsi üçün əsas rol oynayır.

Nəticə

Statistik analiz yalnız bir vasitə deyil, həm də tibb və əczaçılıq elminin təməl sütunlarından biridir. Bu yanaşma dərman müalicəsinin idarə olunmasından və fərdiləşdirilmiş təbabətdən tutmuş ictimai sağlamlığın monitorinqi və dərman səhvlərinin qarşısının alınmasına qədər bir çox sahələrdə əhəmiyyətli dərəcədə effektivliyi artırır. Məlumatların istifadəsi vasitəsilə əczaçılar daha əsaslan-

dırılmış, sübuta əsaslanan qərarlar verə bilir, dərman istifadəsi prosesini optimallaşdırır və nəticə etibarilə pasiyentlərin müalicə nəticələrini yaxşılaşdırırlar. Gələcəkdə səhiyyə sahəsindəki yeniliklər etibarlı, etik və şəffaf statistik metodologiyaların tətbiqindən asılı olacaqdır. Ənənəvi biostatistikanın müasir hesablama elmləri ilə vəhdətinin yaradılması fərdiləşdirilmiş, proqnozlaşdırıcı və profilaktik tibb istiqamətində irəliləyişin əsasını təşkil edəcəkdir.

Ədəbiyyat

1. Altman, D.G. (1991). *Practical statistics for medical research*. CRC Press.
2. Armstrong, R.A., Slade, S.V., & Eperjesi, F. (2000). An introduction to analysis of variance (ANOVA) with special reference to data from clinical experiments in optometry. *Ophthalmic Physiol Opt*, 20, 235-241.
3. Bland, M. (2015). *An introduction to medical statistics*. Oxford University Press.
4. ClinicalTrials.gov. (2024). *Trends in Registered Clinical Studies*.
5. Collins, G.S., et al. (2015). Transparent reporting of a multivariable prediction model for individual prognosis or diagnosis (TRIPOD). *Annals of Internal Medicine*, 162(1), 55-63.
6. European Medicines Agency. (2024). *AI in Drug Evaluation*.
7. FDA. (2020). *Real-World Evidence*. https://www.fda.gov/science-research/science-and-research-special-topics/real-world-evidence
8. Festing, M.F. (2003). Principles: the need for better experimental design. *Trends Pharmacol Sci*, 24, 341-345.
9. Lew, M.J. (2007a). Good statistical practice in pharmacology: problem 1. *Br J Pharmacol*, 152, 295-298.
10. Lew, M.J. (2007b). Good statistical practice in pharmacology: problem 2. *Br J Pharmacol*, 152, 299-303.
11. Perel, P., Roberts, I., Sena, E., Wheble, P., Briscoe, C., Sandercock, P., et al. (2007). Comparison of treatment effects between animal experiments and clinical trials: systematic review. *BMJ*, 334, 197-200.
12. Piantadosi, S. (2017). *Clinical Trials: A Methodologic Perspective*. Wiley.

Daxil oldu: 01.04.2025
Qəbul edildi: 08.07.2025

DOI: https://doi.org/10.36719/2789-6919/47/73-78

Ayşən Cavadova
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0007-2029-0606
aysenagayeva913@gmail.com

Alma istehsalının dünyada və Azərbaycanda inkişafı

Xülasə

Bu gün dünyada alma sortlarının sayı 6500-ü, Azərbaycanda isə 300-ü keçir. Lakin bunların arasında keyfiyyəti və məhsuldarlığı yüksək olan və kommersiya yolu ilə yetişdirilənlərin sayı çox azdır. Almanın Azərbaycanda 300-ə qədər müxtəlif növü və çeşidi olsa da, bunlardan 60-ı sənaye üçün əhəmiyyətlidir. Almanın digər meyvələrdən üstünlüyü odur ki, ondan il boyu istifadə etmək olar. Almanın yetişmə dövrünə payız (sentyabr, oktyabr), yay (iyul, avqust), qış (noyabr-fevral) daxildir. Almanın sortundan və növündən asılı olaraq dadı, rəngi və ətri müxtəlif olur. Quba rayonu Azərbaycanda əsas almaçılıq rayonu hesab olunur. Burada almaların müxtəlif növləri yetişdirilir. Burada son dövrlər Fuci (Fuji), Qrani Smit (Granny Smith), Qolden Delişes (Golden Delicious), Conocold, Reyn reneti, Ağ renet sortlarına aid tinglər 24 hektarlıq alma bağında əkilmişdir.

Açar sözlər: *alma, inkişaf, yetişdirmə, çeşid, istehsal*

Ayshan Javadova
Lankaran State University
Master student
https://orcid.org/0009-0007-2029-0606
aysenagayeva913@gmail.com

Development of Apple Production in the World and in Azerbaijan

Abstract

Today, the number of apple varieties in the world exceeds 6,500 and in Azerbaijan there are over 300. However, among them, the number of those with high quality and productivity and those grown commercially is very small. Although there are up to 300 different types and varieties of apples in Azerbaijan, 60 of them are important for industry. The advantage of apples over other fruits is that they can be used all year round. The ripening period of apples includes autumn (September, October), summer (July, August), winter (November-February). Depending on the variety and type of apple, its taste, color and aroma vary. Guba region is considered the main apple growing region in Azerbaijan. Various types of apples are grown here. Recently, seedlings of Fuji, Granny Smith, Golden Delicious, Conocold, Rhine Rennet and White Rennet varieties have been planted here in a 24-hectare apple orchard.

Keywords: *apple, development, cultivation, variety, production*

Giriş

Meyvə bitkiləri içərisində alma (Malus Mill) həm qida məhsulu istehsalı nöqteyi nəzərindən, həm də beynəlxalq ticari-iqtisadi cəhətdən yüksək gəlir gətirən bitkidir. Hal-hazırda bu bitki sənaye miqyasında Antarktida istisna olmaqla, Yer kürəsinin bütün materiklərində becərilir və Asiya 60,7%-lə birinci yerdə durur. Sonrakı yerləri isə Avropa (22,1%), Amerika (12,9%) və Afrika bölüşdürür. 1961-2020-ci illər ərzində onun istehsalı 17,054 mln. tondan 86,443 mln. tonadək (5,07 dəfə) artmışdır. Bu dövr ərzində müvafiq olaraq alma meyvəsinin ixracatı 5,1 dəfə artaraq 1,609 mln. tondan 8,201 mln. ton olmuşdur (Hüseynov, 2018, s. 110).

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Tədqiqat

Alma Orta Asiyada yaranan və bütün dünyaya yayılmış, dünyanın ən çox istehsal olunan yarpaqlı meyvə növlərindən biridir. Çin dünyada ən çox alma istehsal edir, ondan sonra ABŞ, Polşa, İtaliya və Fransa gəlir. Sağlamlıq faydaları ilə məşhur olan alma demək olar ki, hər ölkədə yetişdirilir (Lipskaya, 2007, c. 81).

Dünyada alma istehsalı: Ölkələr üzrə alma istehsalı siyahımızda alma istehsal edən ilk on ölkə və onların istehsal etdikləri alma miqdarı tonlarla göstərilir (Ostapenko, 2006. c. 78-79).

Çində alma istehsalı: Çin illik 44 milyon tondan çox alma istehsal etməklə qlobal alma istehsalında ən yüksək mövqedədir. Ölkə təzə alma meyvələrinin ən böyük ixracına və ən böyük alma əkin sahəsinə görə siyahıya başçılıq edir (Quliyev, 2010, s. 7). İstehsal müxtəlif yerlərdə aparılsa da, alma əkinçiliyi əsasən Bohai Körfəzi və Lös Yaylası kimi bəzi bölgələrdə cəmləşmişdir. Kiçik təsərrüfatlar alma bağlarının əksəriyyətini idarə etsə də, bu iki sahə ölkənin əkin sahəsinin 80%-ni və istehsalının 90%-ni təşkil edir.

Çinin təzə alma istehsalı 2020-ci ilə qədər dünya üzrə ümumi məhsulun 53,20%-ni təşkil etmişdir. Alma sənayesi ölkənin milli meyvə sənayesinin və kənd təsərrüfatının ilkin inkişafı sənayesinin mühüm hissəsinə çevrilmişdir. Bu, Çinin əksər alma istehsal edən bölgələrində fermerlər üçün əsas gəlir mənbəyidir.

Diaqram 1. 2013-2023-cü illərdə Çində alma istehsalının həcmi (mln. ton)



2023-cü ildə Çin 45 milyon ton alma toplayıb ki, bu da bir il əvvəllə müqayisədə 1% və ya 500 min ton çoxdur. Çində 2023-cü ildə alma istehsalını əvvəlki təxminlərlə, yəni 41 milyon tona yaxın olan müqayisə etsək, onda istehsalın 10% və ya 4 milyon ton artımı özünü göstərir. Aydındır ki, 2023/24 mövsümündə Çin Asiya və Yaxın Şərqdə alma qiymətinin yüksək səviyyəsini nəzərə alaraq, yerli istehlakın zərərinə təzə alma ixracını artırmağa çalışacaqdır.

Türkiyədə alma istehsalı: Türkiyədə alma istehsalı 1966-cı ildən bəri böyük inkişaf göstərdi. 1966-cı ildə 440 min ton olan alma istehsalı bu günə qədər təxminən on qat artaraq dörd milyon tonu keçib. 2023-cü ildə Türkiyədə 167 min 437 hektar sahədə 4 milyon 602 min 517 ton alma istehsal edilib (www.statista.com/statistics/275644/apple-production-in-turkey).

Diaqram 2. Türkiyədə alma istehsalı



Digər kənd təsərrüfatı məhsullarından fərqli olaraq Türkiyənin 81 vilayətində alma yetişdirmək mümkündür. Halbuki ümumi istehsalın 84%-i yalnız 10 əyalətdə həyata keçirilir. Alma istehsalında İsparta 1 milyon 169 min 945 tonla liderdir. Türkiyənin alma istehsalının 25,4%-ni qarşılayan İspartanı 713 min 190 ton ilə Karaman, 581 min 304 ton ilə Niğde, 448 min 022 ton ilə Antalya, 255 min 871 ton ilə Kayseri, 198 min 483 ton ilə Konya, 176 min 483 ton ilə Dənizli izləyir.

ABŞ-da alma istehsalı: Alma istehsalına ən böyük töhfə verən üçüncü ölkə orta hesabla 4,6 milyon tonla ABŞ-dır. ABŞ-da ən çox istehlak edilən ikinci meyvə olmaqla, 2500 alma çeşidi yetişdirilir, ən yaxşı növlərə Gala, McIntosh, Rome, Red Delicious, Granny Smith, Fuji, Golden Delicious, Honey Crisp, Cripps, Empire və Pink Lady daxildir (www.statista.com/statistics/275644/apple-production-in-us).

Diaqram 3. 2000-2023-cü illərdə ABŞ-da alma istehsalının həcmi (min ton)



Bununla belə, Vaşinqton ştatı ən böyük alma istehsal edən ştatdır və ABŞ-dakı almaların təxminən 70%-ni təşkil edir. Digər alma istehsal edən ştatlar Nyu-York, Miçiqan, Pensilvaniya, Kaliforniya və Virciniyadır (Lotze, Bergh, 2003, p. 16-20.). ABŞ-da alma istehsalı ixraca görə böyük gəlir mənbəyidir. Ölkədə təxminən 322 min hektar sahədə hər il orta hesabla 240 milyon buşel alma yetişdirən 5000-dən çox alma istehsalçısı var.

Polşada alma istehsalı: Polşa hər il 3,6 milyon tondan çox alma istehsal edərək, onu dünyada Çin, Türkiyə və ABŞ-dan sonra dördüncü yerə qoyur (Yıldırım, 2002, s. 165). Almalar ölkənin meyvə istehsalının 80%-ni təşkil edir. Bununla belə, cənub-qərb, cənub-şərq mərkəzi Polşa kimi əsas alma yetişdirən ərazilər var. Yetişdirilən 14 əsas növ arasında Royal Gala, Golden Delicious, Szampion və Jonaprince var, əksəriyyəti kommersiya məqsədilə yetişdirilir (Hüseynov, Məmmədova, 2018, s. 25). 2023-cü ilin yanvar-sentyabr aylarında Polşa ümumi dəyəri 279 milyon 570 min avro olan 577 min 238 ton alma ixrac edib. 2022-ci ilin eyni dövründə bu, 208,363,000 avro dəyərində 494,928 ton olub.

Azərbaycanda alma istehsalı: Azərbaycanda 2023-cü ilin statistikasına görə 27.7 min hektar alma bağları sahəsi olub. Bağların sahəsi 2023-cü ildə 2022-ci ilə nisbətən 9.5%, 2019-cu ilə nisbətən isə 10.4% azalıb. Ümumi alma bağlarından barverən yaşda olanlar 26.4 min hektardır (95.3%) (www.stat.gov.az/source/agriculture/).

Diaqram 4. Azərbaycanda alma bağlarının ümumi sahəsi (min ha-ilə)



Cəmi alma bağlarından ənənəviyə 58.0%, intensivə 40.0%, superintensivə isə 2.0% ərazi daxildir.

Diaqram 5. Alma bağlarının Azərbaycanda əkin strukturu



Cəmi alma bağlarının 85.8%-inin 2023-cü ildə rayonlar üzrə payına 41.9%-i Quba, 15.4%-i Qusar, 9.5%-i Xaçmaz, 5.4%-i Gədəbəy, 3.7%-i Naxçıvan MR., 2.6%-i Qəbələ, 2.1%-i İsmayıllı, 1.9%-i Şabran, 1.8%-i Balakən və 1.5%-i Zaqatala daxildir. Ölkədə alma istehsalı 2023-cü ildə 2022-ci ilə görə 5.2% azalmış, 2019-cu ilə görə 3.1% artaraq, 301.8 min ton olmuşdur (Diaqram 6).

Diaqram 6. Azərbaycanda alma istehsalı (min ton-ilə)



Alma istehsalının 2023-cü ildə rayonlardan Quba 41.4%-i, Xaçmaz 15.2%-i, Qusar 13.2%-i, Gədəbəy 4.5%-i, Naxçıvan M.R.-nın isə 3.1%-i payına düşüb (Diaqram 7).

Diaqram 7. Rayonlarda əsas istehsalçı məhsul yığımı (min ton-ilə)



Almanın məhsuldarlığı 2023-cü ildə 2022-ci ilə görə 4.7%, 2019-cu ilə görə isə 13.4% artaraq, 114.1 sent/ha olmuşdur (Diaqram 8).

Diaqram 8. Almanın məhsuldarlığı (sent/ha-ilə)



Daxili bazarda 2020-2022-ci illərdə Palmet sortu almanın topdan satış qiymətləri 1 kiloqramı 0.35-2.60 AZN olmuş, 2023-cü ildə isə bu qiymət 0.60-1.34 AZN olmuşdur. Simerenko sort almanın topdan satış qiymətləri 2020-2022-ci illərdə 0.50-2.35 AZN olmuş, 2023-cü ildə isə bu göstərici 0.50-0.90 AZN arasında dəyişmişdir. Alma ixracı 2023-cü ildə 2022-ci ilə görə 10.9% artımla 91.2 min ton olmuşdur. Azərbaycana 2015-2023-cü illərdə alma idxalı orta hesabla 737 ton olmuşdur. Ölkəyə 2022-ci illə müqayisədə 2023-cü ildə 299.3 ton, yəni 5.9 dəfə az alma idxal olunub (Cədvəl 3).

Nəticə

Dünyada alma ixracının 2022-ci ildə təqribən 80%-dən çoxu Çin, Polşa, İtaliya, ABŞ, Fransa, Türkiyə, Yeni Zelandiya, Çili, CAR və İranın payına düşüb. Alma ixracında dünya üzrə Azərbaycanın payı 0.8% olmuşdur. Yetişdirilmə və saxlanma şərtlərinə görə ən sərfəli meyvə hesab edilən almaya ilboyu tələbat azalmır (Bozcuk, 2000, s. 213). Təzə, quru və ya şirə şəklində istifadə olunan alma vitaminlə zənginliyi və s. xüsusiyyətlərinə görə dünyada son 20 ildə istehsalının 67% artmasına gətirib çıxarmışdır. Dünyada almanın 20 mindən çox növündən 300-ə yaxını Azərbaycanda yetişdirilir. Azərbaycanda hazırda 27,7 min ha-ya yaxın alma bağından, 11,7 min hektarına superintensiv və intensiv bağlar daxildir. Bu meyvə növünün Azərbaycanın demək olar ki, bütün bölgələrində yetişdirilməsinə baxmayaraq, əsas becərilmə ərazisi Quba-Xaçmaz iqtisadi rayonudur. 19 min hektar alma bağlarından 70%-i Quba-Xaçmaz iqtisadi rayonunun payına düşür. Superintensiv və intensiv alma bağlarından 96%-i bu bölgədə yerləşir. Həmçinin, Qusar rayonunda 4,3 min hektar, Qubada 11,6 min hektar, Xaçmazda isə 2,6 min hektar alma bağı mövcuddur. Deyilənlərdən əlavə olaraq, Gədəbəy, İsmayıllı, Şərur, Şabran, Zaqatala, Şəki, Qəbələ, Balakən, Qax rayonları da alma becərilməsinə görə seçilən rayonlardır (Sadıqov, 2005, s. 9). Azərbaycan üçün alma gəlirli sahə olduğu üçün alma bağlarına maraq daha da artmışdır. Alma ağaclarının yetişdirilməsində ortaya çıxan əsas risklərə dolu, şaxtavurma, fırtına, müxtəlif növ zərərvericilər, qasırğa və bitki xəstəlikləri daxildir. Azərbaycanda tətbiq olunan aqrar sığorta vasitəsilə 41 bitkini, həmçinin alma

bağlarını da bir çox risklərdən sığortalamaq olar. Fermerlərə sərfəli şərtlərlə alma məhsulunu təbiət hadisələri, dolu, 3-cü şəxslərin hərəkəti, qasırğa-fırtına, sel-subasma, yanğın, normadan artıq qar yağıntıları və digər risklərdən sığortalamaq şansı verilmişdir (Quliyev, 2011, s. 4).

Ədəbiyyat

1. Bozcuk, S. (2000). *Bitki Fizyolojisi*. Hatiboğlu Yayınları.
2. Hüseynov, H.A., Məmmədova, K. (2018). *"Aqrokimya" kitabı*, Qanun nəşriyyatı.
3. Hüseynov, M.M. (2018). *Əkinçilik sistemləri*. "İmpuls LTD".
4. Quliyev, B.O. (2010). *Alma bitkisinin becərilməsi*. Müəllim nəşr.
5. Quliyev, B.O. (2011). *Almanın calaqaltıları*.
6. Lotze, E., Bergh, O. (2003). Fruit Growth Curves Weekly Tables for Fuji and Cripps' Pink Apples under Western Cape Conditions. *SA Fruit Journal Abst*. 1(4): pp.16-20.
7. Lipskaya, S.L. (2007). *Biokhimicheskii sostav plodov yabloni*. Plodovodstvo. T.19.
8. Ostapenko, V.I. i dr. (2006). *Otsenka prigodnosti sortov yabloni dlya vozdelyvaniya v sadakh universal'nogo naznacheniya*. Plodovodstvo, T.18, ch.II.
9. Sadıqov, Ə.N., Sadıqova, N.M. (2005). *Azərbaycanda alma bitkisi*. Səda nəşr.
10. Yıldırım, F.A. (2002). *Elmalarda (Malus communis L.) Farklı Dikim Sistemlerinin Karşılaştırılması*. Ankara Üniv. Fen Bilimleri Enstitüsü Bahçe Bitkileri Anabilim Dalı, Doktora Tezi.
11. www.stat.gov.az/source/agriculture/
12. www.statista.com/statistics/275644/apple-production-in-us
13. www.statista.com/statistics/275644/apple-production-in-turkey

Daxil oldu: 07.04.2025
Qəbul edildi: 14.07.2025

RİYAZİYYAT VƏ MEXANİKA

MATHEMATICS AND MECHANICS

DOI: https://doi.org/10.36719/2789-6919/47/79-84

Rovshan Humbataliyev
Azerbaijan State Marine Academy
https://orcid.org/0000-0002-9114-8953
rovshangumbataliev@rambler.ru
Sariya Allahverdiyeva
Mingachevir State University
https://orcid.org/0009-0007-2475-4148
seriye_allahverdiyeva@mail.ru
Farida Bayramova
Baku State University
https://orcid.org/0009-0001-8413-692x
feridamb1970@gmail.com

Mathematical Modeling of Oil Production Growth

Abstract

Oil production represents a critical component of the global energy matrix, directly influencing economic stability, geopolitical dynamics and long-term sustainability strategies. Accurate modeling of the temporal evolution of oil production-particularly its growth and decline phases-is essential for informed decision-making in energy policy formulation, macroeconomic forecasting and strategic resource management. This study explores the applicability of mathematical modeling, with a specific focus on differential equations, in capturing the underlying dynamics of oil production trends. Both exponential and logistic growth models are examined as analytical frameworks and their effectiveness in approximating empirical production data is evaluated. Through a comparative analysis of these models, the research aims to demonstrate their relevance, limitations and practical value in interpreting real-world data within the context of energy systems analysis.

***Keywords**: Oil production, model, energy policy, approximation, logistic growth, process*

Rövşən Hümbətəliyev
Azərbaycan Dövlət Dəniz Akademiyası
https://orcid.org/0000-0002-9114-8953
rovshangumbataliev@rambler.ru
Səriyə Allahverdiyeva
Mingəçevir Dövlət Universiteti
https://orcid.org/0009-0007-2475-4148
seriye_allahverdiyeva@mail.ru
Fəridə Bayramova
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0001-8413-692x
feridamb1970@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Neft hasilatının artımının riyazi modelləşdirilməsi

Xülasə

Neft hasilatı iqtisadi sabitliyə, geosiyasi dinamikaya və uzunmüddətli davamlılıq strategiyalarına birbaşa təsir göstərən qlobal enerji matrisinin kritik tərkib hissəsini təşkil edir. Neft hasilatının müvəqqəti təkamülünün, xüsusən də onun artım və azalma mərhələlərinin dəqiq modelləşdirilməsi enerji siyasətinin formalaşdırılması, makroiqtisadi proqnozlaşdırma və strateji resursların idarə edilməsində məlumatlı qərarların qəbulu üçün vacibdir. Bu tədqiqat neft hasilatı tendensiyalarının əsas dinamikasını ələ keçirmək üçün diferensial tənliklərə xüsusi diqqət yetirməklə riyazi modelləşdirmənin tətbiqi imkanlarını araşdırır. Həm eksponensial, həm də logistik artım modelləri analitik çərçivələr kimi araşdırılır və empirik istehsal məlumatlarının yaxınlaşmasında onların effektivliyi qiymətləndirilir. Bu modellərin müqayisəli təhlili vasitəsilə tədqiqat enerji sistemlərinin təhlili kontekstində real dünya məlumatlarının şərhində onların aktuallığını, məhdudiyyətlərini və praktiki dəyərini nümayiş etdirmək məqsədi daşıyır.

Açar sözlər: *neft hasilatı, model, enerji siyasəti, yaxınlaşma, logistik artım, proses*

Introduction

Oil production is a complex, multifactorial process that evolves over time due to the interplay of technological advancements, economic conditions and political dynamics. Understanding the trajectory and rate of change in oil production is essential for effective energy policy formulation, strategic resource planning, and long-term economic forecasting. In this context, mathematical modeling serves as a crucial tool for capturing and interpreting the underlying dynamics of oil production systems.

This study focuses on the modeling of the production growth phase by employing classical differential equation-based frameworks, specifically the exponential and logistic growth models. The literature presents extensive research in this area. Notably, in (Hubbert, King, 1956), the foundational “Hubbert Peak Theory” is introduced, where the author analyzes the geological constraints of fossil fuel reserves and proposes that oil production typically follows a bell-shaped curve-characterized by an initial rise, a peak, and a subsequent decline. Using a logistic function (S-curve), the model accurately predicted that U.S. oil production would peak in the 1970s and emphasized the inevitable depletion of natural resources. Although potential alternatives such as nuclear energy were discussed, the central focus remained on oil depletion and its broader economic implications.

Research

In (Verhulst, 1838), Pierre François Verhulst proposed the now widely known **logistic growth equation**, initially formulated to model population growth under conditions of finite resources. This model presented a more realistic alternative to Malthusian (exponential) growth by introducing the concept of a **carrying capacity**, where growth decelerates and eventually stabilizes due to resource limitations. Verhulst’s formulation was later adapted by Hubbert for modeling oil production and has since found application in various disciplines, including ecology and epidemiology.

Gail Tverberg, in (Tverberg, 2012), extends the Hubbert model by linking energy supply constraints to global financial instability. She argues that sustainable economic growth is highly dependent on an expanding energy supply and that energy shortages can precipitate systemic financial crises. Her work highlights the broader macroeconomic risks posed by diminishing oil availability and emphasizes how elevated oil prices can induce both inflationary and deflationary pressures within the global economy.

In contrast, Michael Lynch offers a critical evaluation of the Hubbert curve in (Lynch, 2002), arguing that it oversimplifies the complexity of modern energy markets. He contends that technological innovation, policy shifts, the discovery of new reserves, and responsive market behaviors can significantly alter production patterns, rendering the Hubbert model less universally

applicable. According to Lynch, the oil industry is more adaptive and dynamic than what is assumed in rigid logistic-based models.

Building upon this foundation, our research revisits the classical logistic growth model (Verhulst, 1838) and its application to energy production, particularly through Hubbert's adaptation (Hubbert, King, 1956). We present a formal mathematical derivation of both exponential and logistic models using differential equations and demonstrate their relevance in modeling oil production under the assumption of limited natural resources. Compared to purely exponential models, the logistic model offers a more nuanced and realistic representation of production dynamics. Works (Humbataliyev, 2014; Mirzoyev, Humbataliyev, 2011; Humbataliyev, 2008; Humbataliyev, 2009; Humbataliyev, 2007; Humbataliyev, 2021; Gunbataliyev, 2004; Hunbataliyev, 2003; Gunbataliyev, 2010) develop mathematical models and boundary conditions for predicting corrosion under mechanical stress of ship hull metals in aggressive environments.

Furthermore, this study explores practical applications of these models in areas such as resource planning, policy development, and evaluation of technological interventions. Importantly, our analysis emphasizes that such models are not merely theoretical constructs but can serve as applicable frameworks for real-world energy system assessments-thereby enhancing their practical value and strategic relevance.

Modeling. 1.Exponential Growth Model. Suppose that a variable (output) in a system grows at a rate proportional to its current value. This means that the growth rate of this variable over time is directly proportional to itself.

Definition 1. If the growth rate of a variable quantity (for example, output) in a system is directly proportional to the current value of that quality itself at any given moment, this process is called an exponential growth model. In such cases, the system exhibits "self-reinforcing growth", that is, the more there is, the more growth there is.

Such a growth process is observed in many natural and man-made systems, especially in economics, energy production, demography, and biology. If output $P(t)$ increases relative to its current level and during the increase t If the volume of production (for example, barrels/day) is also expressed, then this process mathematically becomes as follows:

$$\frac{d\,P}{d\,t} = r\,P\,.$$

Here, $P(t)$ the production volume over time (barrels/day), r constant growth rate (per year).

Theorem 1: *If the function* $P(t)$ *satisfies the equation* $\frac{d\,P}{d\,t} = r\,P$ *and is an initial condition* $P(0) = 0$*, then this equation has a unique* $P(t) = P_0 e^{r\,t}$*. Here* $e \approx 2{,}71828$ *and* P_0 *are the initial production volumes.*

Proof. If we apply the method of separation of variables to the given equation,

$$\frac{1}{P}dP = r\,d\,t\,.$$

Here, if we integrate both sides, we get

$$\ln|P| = r\,t + C\,.$$

From here $|P| = e^{r\,t}e^{C}$ it is also possible that if we accept $e^{C} = C_1 > 0$, we will get equality $|P| = C_1 e^{r\,t}$. Since $P(0) = C_1$ it is possible according to the initial condition $P(0) = 0$. Then it is obtained $P(t) = P_0 e^{r\,t}$ according to the condition of the theorem. Therefore, the solution for the exponential growth equation is unique and unique.

2.Logistic Growth Model. A more realistic and natural version of the model - because systems do not grow infinitely, but approach a certain limit (carrying capacity).

Definition 2. A growth process in which a system (e.g. energy production, population, capital, etc.) initially grows exponentially, but over time, due to limited resources and a maximum limit, the growth slows down and finally stabilizes is called a logistic growth process.

This model takes into account the dynamic adjustment mechanism of the system itself - that is, growth depends not only on the current amount, but also on how close it is to the maximum limit. Mathematically, it is shown in the figure below

$$\frac{d\,P}{d\,t} = r\,P\left(1-\frac{P}{K}\right).$$

Here $K>0$ - is the carrying capacity of the environment, $P(t)$ - represents the population changing over time, that is, the volume of production changing over time, $r>0$ the growth rate.

Theorem 2. *The logistic solution model of production*

$$\frac{d\,P}{d\,t} = r\,P\left(1-\frac{P}{K}\right)$$

has the only solution that satisfies the initial condition

$$P(t)=\frac{K}{1+\left(\frac{K-P_0}{P_0}\right)e^{-r\,t}}.$$

This solution $\lim\limits_{t\to\infty} P(t)=K$ *occurs over time.*

Proof. Let us write the equation given in the condition of the theorem using the method of separation of variables of a differential equation

$$\frac{d\,P}{P\left(1-\frac{P}{K}\right)} = r\,dt.$$

Let's simplify the fraction on the left side of the equation

$$\frac{1}{P\left(1-\frac{P}{K}\right)} = \frac{K}{P(K-P)}.$$

Here, let's write the fraction as follows:

$$\frac{K}{P(K-P)} = \frac{A}{P}+\frac{B}{K-P}. \qquad (1)$$

If we bring the right side of the equality to a common denominator, we get

$$\frac{A}{P}+\frac{B}{K-P} = \frac{A(K-P)+B\,P}{P(K-P)}. \qquad (2)$$

According to equations (1) and (2),

$$K = A(K-P)+B\,P = AK+(B-A)P.$$

From here we get $AK=K\Rightarrow A=1$ and $(B-A)P=0\Rightarrow B-A=0\Rightarrow B=A=1$
Let us consider these equalities in the differential equation separated by their variables above

$$\frac{d\,P}{P\left(1-\frac{P}{K}\right)}=\left(\frac{1}{P}+\frac{1}{K-P}\right)d\,P=r\,dt\,.$$

Let's integrate both sides of the equality

$$\int\left(\frac{1}{P}+\frac{1}{K-P}\right)d\,P=\int r\,dt\Rightarrow\ln\left|P\right|+\ln\left|K-P\right|=r\,t+C\,/$$

In here we get

$$\ln\left(\frac{P}{K-P}\right)=r\,t+C\Rightarrow\frac{P}{K-p}=e^{rt+C}\Rightarrow\frac{P}{K-P}=C\,e^{rt}\,/$$

From here we get

$$P=C\left(K-P\right)e^{r\,t}\Rightarrow P+P\,Ce^{rt}=K\,Ce^{rt}\Rightarrow P\left(1+Ce^{rt}\right)=KCe^{rt}\,.$$

So it can be said $P\left(t\right)=\frac{KCe^{rt}}{1+Ce^{rt}}$. If we take into $P_0=\frac{KC}{1+C}$ account the initial condition. If we take this into account in the main equation we get

$$P\left(t\right)=\frac{K}{1+\left(\frac{K-P_0}{P_0}\right)e^{-rt}}\,.$$

It happens here $\lim_{t\to0}P\left(t\right)=K$ too. So, it happens $1+\left(\frac{K-P_0}{P_0}\right)e^{-rt}\to1$ when $t\to0$.

It is clear that, given the limited resources, it can be seen that production initially increases rapidly, but after a certain limit, the growth slows down. The main advantage of this model is that:

- It imitates exponential growth at the beginning: $P\left(t\right)\approx P_0e^{r\,t}$;
- Over time, growth slows down, as the system's capabilities are exhausted;
- It provides a forecast that is more consistent with long-term stability and reality.

Conclusions

Based on the theory of approximations, we can say that the exponential model shows excessive growth in the long term and leads to unrealistic results. The logistic model, on the other hand, demonstrates that production reaches a certain limit and stabilizes, that is, it is closer to real processes.

The logistic growth model more accurately explains how oil production varies within natural limits. Such models:

- Forecasting the date of depletion of reserves,
- Formulating export strategies,
- Assessing the impact of technological interventions.

Note that additional variables (geopolitical factors, technological development, environmental constraints) can be included in this model.

References

1. Gunbataliyev, E.Z. (2010). Ultimate tension of corroded infinite plate with a hole. *Transaction of NAS of Azerbaijan*, v.30, issue 7, pp.81-84.
2. Gumbataliyev, R.Z. (2007). On regular solvabilityof boundary value problems in weight space. *International Journal of Mathematical Analysis*, v.1, №25, pp.1209-1216.
3. Gunbataliyev, E.Z. (2004). Corrozion of ring sector at pure curve. *Transactions of NAS Azerbaijan*, v.24, issue 4, pp.197-202.
4. Hubbert, M. King. (1956). *Nuclear Energy and the Fossil Fuels*. Shell Development Company Publication № 95, pp. 1-56.
5. Humbataliyev, R.Z. (2014). On solvability of some boundary value problems for elliptic type operator-differential equations. *Eurasian Mathematical Journal*, v.5, №4, pp.33-55.
6. Humbataliyev, R.Z. (2008). On generalized solution of a class higher order operator-differential equations. *Turkish Journal of Mathematics*, v.32, №3, pp. 305-314.
7. Humbataliyev, R.Z. (2009). On the solvability of a class of boundary value problems for high-order operator-differential equations. *Differensialnıe uravnenie*. v.45, issue.10, pp.1420-1428.
8. Humbataliyev, R.Z. (2021). On the periodicity of a boundary value problem. *Scientific Horizon in the Context of Social Crises*, v.50, pp.567-574.
9. Hunbataliyev, E.Z. (2003). On some results of processing the experimental data of tense metals corrosion longevity considering an influence of various factors. *Transactions of NAS Azerbaijan*, v.23, issue 1, pp. 251-257.
10. Lynch, M.C. (2002). The Hubbert Curve: A Critical Review. *The Energy Journal*, Vol. 23, No. 4, pp. 117-139.
11. Mirzoyev, S.S., Humbataliyev, R.Z. (2011). On normal solvability of boun-dary value problems for opera-tor-differential equations on se-mi-axis in weight space. *Taiwanese Journal of Mathematics*, v.15, №4, pp. 1637-1650.
12. Tverberg, G. (2012). Oil Supply Limits and the Continuing Financial Crisis. *Energy*, Vol. 37, Issue 1, pp. 27-34.
13. Verhulst, P.F. (1838). Notice sur la loi que la population poursuit dans son accroissement. *Correspondance mathématique et physique*. Vol. 10, pp. 113-121.

Received: 12.04.2025
Approved: 19.07.2025

İÇİNDƏKİLƏR

CONTENTS

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

HUMANITIES AND SOCIAL SCIENCES

Aidə Bağırova
2003-cü il İraq müharibəsi ərəfəsində aparıcı dövlətlərin diplomatik mübarizəsi 9
Yeganə Məmmədova
Məktəbəqədər yaş dövründə düzgün nitq və tələffüz vərdişlərinin formalaşdırılması:
metod və yanaşmalar 15
Zəhra İslamova
Bakı və ətrafında orta əsrlərə aid vəqf əmlakları 20
Диляра Алиева
Новый реализм в современной русской литературе: поиск новых форм 26
Samir Baxşəliyev
Azərbaycan diplomatik heyətinin üzvləri Paris Sülh Konfransında 32
Lalə Məmmədova
Öyrənmə çətinliyi olan uşaqların təlimində müasir yanaşmalar 37
Ülkər Həsənzadə
Naxçıvan Muxtar Respublikasında mövsümiliyin ləğvi və uzunmüddətli turizmin inkişafı 41
Бахар Гадирова
О переводах произведений Адама Мицкевича
(На основе переводов на Азербайджанский и русский языки) 45
Lamiə Heydərova
Azərbaycan paremioloji vahidlərində “Xeyir” konseptinin ifadəsi 52
Kəmalə Vəliyeva
Azərbaycan və ingilis dillərində əvəzliyin tədrisi metodikası 56
Кенан Гусейнзаде
Символ победы: стратегическое и символическое значение Шуши 60

TƏBİƏT ELMLƏRİ

NATURAL SCIENCES

Vugar Garagurbanli
Climate, Radiation Balance, Atmospheric Periodicity, and Hydrothermal Regime
of the Absheron Peninsula 64
Aytəkin Məmmədova, Nərmin Tağıyeva,
Aybəniz Tağızadə, Oktay Əliyev
Statistik analizin tibb və əczaçılıq sahəsində əhəmiyyəti 68
Ayşən Cavadova
Alma istehsalının dünyada və Azərbaycanda inkişafı 73

RİYAZİYYAT VƏ MEXANİKA

MATHEMATICS AND MECHANICS

Rovshan Humbataliyev, Sariya Allahverdiyeva, Farida Bayramova
Mathematical Modeling of Oil Production Growth 79

Redaksiyanın ünvanı
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” Nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.1707@aem.az

Editorial address
AZ1073, Baku,
Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.1707@aem.az

İmzalandı: 26.07.2025
Onlayn çap: 30.07.2025
Kağız çapı: 10.08.2025
Kağız formatı: 60x84, 1/8
H/n həcmi: 10,75 ç.v.
Sifariş: 72

“ZƏNGƏZURDA”
Çap Evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

Signed: 26.07.2025
Online publication: 30.07.2025
Paper printing: 10.08.2025
Format: 60/84, 1/8
Stock issuance: 10,75 p.s.
Order: 72

It has been published in the printing house
“ZANGAZURDA”
Address: Baku city, Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru